Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

16 APREL 2019-cu il

№ 67 (3965)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QARABAĞDA AYAĞINI İTİRMİŞ ERMƏNİ ƏSGƏR: «SİLAHINIZI ATIN VƏ QARABAĞI TƏRK EDİN...»

■ səh. 9 ■

Yeni iqtisadi modelə keçid - Bir il əvvəl Prezidentin vədi ümumi komanda hədəfinə çevrildi... ■ səh. 3 ■

Prezidentin məktəbli qızın faciəsini şəxsi nəzarətə götürməsindən hələ də bəziləri nəticə çıxarmayıb ■ səh. 3 ■

XİN başçılarının Moskvada Qarabağ görüşü bəyanatla bitdi - qarşılıqlı media səfərləri razılaşdırıldı... ■ səh. 2 ■

Bakının iştirakı ilə yeni geoiqtisadi güc mərkəzi yaranır - ABŞ Türkiyəyə də sanksiya tətbiq etsə... ■ səh. 8 ■

Azərbaycanın Rusiya-Çin hərbi təlimlərinə qatılması yeni geosiyasi proseslərdən xəbər verir ■ səh. 5 ■

Qarşıdakı bir ayda neft 100 dollara qalxacaq ■ səh. 10 ■

Böyük reklam lövhələrində milli qəhrəmanlarımızın portretləri... ■ səh. 12 ■



■ səh. 4 ■

## Bakıdan dünyaya silkələyici mesaj - bəşəriyyəti məhv edən «ağ ölüm»ün kökü Azərbaycanın torpaqlarının işğal altında saxlanmasıdır...

*Ermənilərin Qarabağda narkovasitələri istehsal və tranzit etməsi terroru çiçəkləndirir*



**Manatın uzun müddət sabit qalmasının təhlükəli tərəflərinin müzakirəsi başlayıb...** ■ səh. 10 ■

**Bakı apteklərində «Naftalan» məlhəmi problemi, «Bio oyl» müəmması...** ■ səh. 13 ■



**Masallıda Vətən Müharibəsi abidəsinin supermarket yerinə qurban verilməsi məsələsinə kənd camaatı da qarışdı** ■ səh. 11 ■

■ səh. 2 ■

"Xalq Azərbaycanda təsadüfi qüvvələrin hakimiyyətə gəlməsinə bir dəfə dözdü"



■ səh. 5 ■

İrandan Ermənistana açıq xəbərdarlıq - çayları çirkləndirməyi dayandırın...



■ səh. 6 ■

Mübariz Mənsimovun SOCAR-a düşmən kəsilməsinin "sirri"...



■ səh. 8 ■

Ukraynada seçki prosesləri yeni məzmun alır, Poroşenko birbaşa dialoq məsələsində Zelenskini üstələdi...



■ səh. 13 ■

Rusiyada Azərbaycandilli məktəblər...



## Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluq edən şəxslərə Azərbaycan Prezidentinin 50 manat təqaüdü təsis edildi

**Prezident İlham Əliyev "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında fərman imzalayıb.**

Fərmanda qeyd olunur ki, "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği 50 manat müəyyən olunsun.

## Müharibə veteranlarına Prezidentin 80 manat təqaüdü təsis edildi...

**Prezident İlham Əliyev "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında fərman imzalayıb.**

Fərmanda qeyd edilir ki, "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği 80 manat müəyyən olunsun.



## XİN başçılarının Moskvada Qarabağ görüşü bəyanatla bitdi - qarşılıqlı media səfərləri razılaşdırıldı...

**Bu ilin 15 aprel tarixində Moskva şəhərində, Rusiya tərəfinin təşəbbüsünə əsasən, Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında görüş keçirilib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən baki-xeber.com-a verilən məlumata görə, görüşdə, həmçinin, ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi iştirak edib.

Görüş zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə başlıca məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Bu xüsusda, cari ilin 29 mart tarixində Vyanada baş tutmuş Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin görüşünün nəticələri diqqətə alınmaqla, münaqişə üzrə danışıqlar prosesinin irəli aparılması perspektivləri nəzərdən keçirilib.

Görüşdə, həmçinin, münaqişə zonasında gərginliyin azaldılmasına dair tədbirlər, habelə humanitar sahədə mümkün birgə fəaliyyət üzrə fikir mübadiləsi aparılıb. Nazirlər, KİV nümayəndələrinin qarşılıqlı səfərləri də daxil olmaqla, insanlararası təmasların qurulması istiqamətində praktiki addımların atılmasına razılıqlarını ifadə ediblər.

Görüş iştirakçıları yaxın gələcəkdə təmasların davam etdirilməsini razılaşdırıblar.

Görüş nəticəsində Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin və ATƏT-in həmsədrlərinin birgə bəyanatı qəbul edilib.

# Böyük Vətən Müharibəsi iştirakçılarına Prezident təqaüdünün məbləği artırıldı - 150 manat

**Prezident İlham Əliyev "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya Müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.**



Dəyişikliyə əsasən, "1941-1945-ci illər Böyük Vətən Müharibəsi iştirakçılarına, İkinci Dünya Müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli sərəncamının 1-ci hissəsində "121 (yüz iyirmi bir)" sözləri "150 (yüz əlli)" sözləri ilə əvəz edilib.

Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Sərəncam 2019-cu il aprelin 1-dən tətbiq edilir.

# Aydın Quliyev: "Xalq Azərbaycanda təsadüfi qüvvələrin hakimiyyətə gəlməsinə bir dəfə dözdü"

*"Müxalifətin daxili intriqa və çəkişmələr içində olması onun siyasi perspektivini məhv edən faktora çevrilib..."*

**Müxalifətin daxili intriqa və çəkişmələr içində olması onun siyasi perspektivini məhv edən faktora çevrilib. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

A.Quliyev bildirib ki, bu gün Azərbaycanda hakimiyyətə gəlmək iddiasında olan müxalifət cəmiyyətin həlledici dəstəyinə qətiyyən sahib deyil, əsasən küçəmeydan aksiyaları ilə hərəkət etdiyi üçün ictimaiyyət onlardan mümkün qədər uzaq durmağa çalışır:

"Bu partiyalar klassik təsnifat prinsiplərinə uyğun partiya formasına hələ düşməyiblər və proseslər göstərir ki, şansları da yoxdur, beynəlxalq partiyalararası inteqrasiya proseslərində ya heç iştirak edə bilmirlər, ya da 15-20 il əvvəl yaradılmış əlaqələr sonradan inkişaf edə bilməyib. Müxalifət partiyalarının həm də xarizmalı lider problemi var. Partiyaların elitası və funksionerləri, demək olar ki, barmaqla sayılası qədərdir. İqtidara qarşı yalnız ittihamlar yağdırsalar da, real akternativ olan heç bir daxili və xarici siyasət platforması təqdim etməyiblər, siyasi hakimiyyəti səmərəli idarə etmək təcrübəsinə qətiyyən malik olmadıqları üçün cəmiyyət onlara etibar etmir. Azərbaycanın belə parametrlərə malik radikal müxalifətinin seçki və ya qeyri-seçki üsulları ilə hakimiyyətə gəlmək gücü yoxdur".

Ekspert qeyd edib ki, ümumiyyətlə, hakimiyyət məsələsi üç mühüm və bir-biri ilə bağlı siyasi fenomendən ibarətdir: "Bunlar hakimiyyətə gəlməyi bacarmaq, hakimiyyəti ən azı orta bir dövr üçün əldə saxlamağı bacarmaq və onu səmərəli şəkildə



həyata keçirməkdən ibarətdir. Hakimiyyətə hazırlaşan və bu iddiada olan hər bir siyasi partiya və ya hərəkat öncədən bu üç istiqamət üzrə tam hazırlıqlı olduğuna əmin olmalı və ictimaiyyəti də buna inandırmalıdır. İctimaiyyətin mütləq əksəriyyətinin buna inanması adətən seçki və ya qeyri-seçki müstəvisində kimin hakimiyyətdən gedəcəyini, ya da kiminsə gələcəyini müəyyən edir".

O vurğulayıb ki, xarizmatik lider, dövlət idarəçilik təcrübəsi, geniş tərkibli komanda və beynəlxalq leqal partnyorluq əlaqələri baxımından indiki iqtidarın heç bir problemi olmadığını nəzərə alsaq, müxalifətin hakimiyyətə gəlmək şanslarının ümumiyyətlə sıfıra bərabər olduğu təsdiqlənir:

"Əgər indiki radikal müxalifətdən hansısa siyasi partiyanı hakimiyyət başında təsəvvür etsək, onun xalqla münasibətlərini daha çox qarşıdurma kimi təsəvvür etmək olar. 1992-1993-cü illərdəki bir illik hakimiyyətin kadr və siyasi platforması üstündə hələ də manevr edən radikalların hakimiyyət şansından ümumiyyətlə danışmaq olmaz. Hətta parlamentdə və icra hakimiyyəti sistemində heç bir iştirakçılıq gücü olmayanların sabah bütünlüklə hakimiyyətə sahiblənə biləcəyini necə təsəvvür etmək olar? Bunu da unutmaq olmaz ki, hələ heç bir siyasi qrup prezident postunda cənab İlham Əliyevi rasional şəkildə əvəz edəcəyinə və xaos proseslərinin qarşısını ala biləcəyinə inandıra bilməyib. Bunu müşahidələr də təsdiqləyir. Hazırda aparılan islahatlar, xüsusilə də sosial siyasət və sabitliyin qorunması xətti Prezident İlham Əliyevin ictimai rəydə alternativsizliyi fikrini daha da gücləndirir".

Baş redaktor bildirib ki, bu gün hakimiyyətə iddialı müxalifətin daxili intriqa və çəkişmələr içində olması, illərdir bundan yaxa qurtara bilməməsi onun siyasi perspektivini sadəcə məhv edən faktora çevrilib: "Bəllidir ki, belə daxili münasibətlər içində olanlar hakimiyyət imkanlarını xalqa yox, qisas və haqq-hesablara sərf etməyə məhkumdur. Azərbaycan cəmiyyəti hakimiyyətin hər təsadüfi qüvvələrin əlinə keçməsinə təkcə 1992-ci ildə dözüm göstərdi və ikinci dəfə dözə biləcəyi istisnadır. İndiki radikalların bir xüsusiyyəti də budur ki, illərdən bəri özlərini hakimiyyətə hazırlamaq işini də unutdular, sadəcə ittihamçılar kimi öz potensiallarını artırmaq haqqında düşündülər. Azərbaycanda indiki hakimiyyəti nə şəxsi xarizmatik, nə də konseptual nöqteyi-nəzərdən əvəz edə biləcək hazırlıqlı qüvvə var".

# ABŞ narkotiklərin qanunsuz dövriyyəsinə qarşı Azərbaycanın səylərindən razı olduğunu bəyan etdi

**ABŞ narkotiklərin qanunsuz dövriyyəsinə qarşı Azərbaycanın səylərindən razıdır.**

"Trend"in məlumatına görə, bunu ABŞ dövlət katibinin Narkotik Vasitələrin Beynəlxalq Dövriyyəsi ilə Mübarizə və Hüquq-Mühafizə Fəaliyyəti üzrə Bürodakı müavini Riçard Qlenn deyib.

R.Qlenn bildirib ki, ABŞ Azərbaycanın narkotiklərin öz sərhədlərindən keçirilməsinin qarşısının alınması ilə bağlı səylərini dəstəkləyir: "Biz bu istiqamətdə birgə əməkdaşlıq etmək istəyirik.

Narkotiklərin dövriyyəsi beynəlxalq problemdir. Heç bir ölkə bunun öhdəsindən təkbaşına gələ bilməz.

Bu məsələdə beynəlxalq tərəfdaşlığın təmin olunması vacibdir".

**Onun sözlərinə görə, Azərbaycan coğrafi cəhətdən beynəlxalq ticarət yollarının kəsişməsində yerləşir: "Amma, təəssüf ki, bu, ölkə ərazisindən narkotiklərin tranziti üçün də yol açır".**

# Yeni iqtisadi modelə keçid - Bir il əvvəl Prezidentin vədi ümumi komanda hədəfinə çevrildi...

**Azərbaycanda yeni iqtisadi modelə keçid artıq reallaşmaq üzrədir. Xatırladaq ki, bunun ilk anonsunu bir müddət əvvəl Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün yeni yaşayış kompleksinin açılışında Prezident İlham Əliyev vermişdi:**

"Seçkilər ərəfəsində bildirmişdim ki, biz yeni iqtisadi modelə keçid edəcəyik, bütün sosial məsələlərin həllinə çalışacağıq. Yəni ciddi islahatların, iqtisadi və sosial sahədə islahatların anonsu prezident seçkiləri ərəfəsində verilmişdir. Seçkilərdən sonra ciddi islahatlara start verildi. Bu islahatlar çoxşaxəlidir.

Verdiyim qərarlar, imzaladığım sərəncamlar həyatımızın hər bir sahəsinə müsbət təsir göstərəcək. Ölkəmiz yeniləşir, müasirləşir. Biz yeni iqtisadi model üzərində işləyirik və elə etməliyik ki, ölkə iqtisadiyyatı bundan sonra da dayanıqlı şəkildə inkişaf etsin. Biz bütün dövrlərdə, hətta böhranlı illərdə də sosial məsələlərə böyük diqqət göstərmişik. 2015-2016-cı illərdə dünyada baş vermiş iqtisadi böhran bütün ölkələrə təsir etmişdir, o cümlədən bizə. Təsəvvür edin, bizim gəlirlərimiz 3-4 dəfə azaldı. Yəni faizlərlə ölçülmürdü, dəfələrlə ölçülürdü. Bu, hər bir ölkə üçün böyük imtahandır, böyük sınaqdır. Əlbəttə ki, görülən operativ tədbirlər nəticəsində biz o böhranın fəsadlarını minimum səviyyəyə endirə bildik və ondan sonra ciddi addımlar ataraq iqtisadi sabitliyi qoruya bildik, inkişaf templərinə qədəm qoyduq".

Ölkə başçısının bu çıxışından sonra Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov yeni iqtisadi modelin nədən ibarət olduğu ilə bağlı məlumat verib. O bildirib ki, yeni model bazar iqtisadiyyatı prinsipləri əsasında hazırlanır və sahibkarlara daha yaxşı şəraitin yaradılmasını nəzərdə tutur. Prezidentin köməkçisi onu da bildirib ki, yeni iqtisadi model həyata keçirilən islahatların davamıdır.

Ə.Həsənovun sözlərinə görə, iqtisadi sahədə həyata keçirilən islahatlar artıq başlanğıc mərhələsində öz effektini verib. Bunun ən bariz nümunəsi vergi və gömrük daxilolmalarındakı artımdır.

Prezidentin köməkçisi sosial islahatlardan da danışıb və bunun davamlı proses olduğunu deyib.

Ə.Həsənov əlavə edib ki, yeni sosial-iqtisadi islahat paketi xalq tərəfindən də dəstəklənir. Bunu Fransanın "Opinion Way" şirkətinin keçirdiyi sorğunun nəticələri də göstərir.

Prezidentin köməkçisi anons edib ki, bütün sahələrdə islahatlar davamlı olacaq. Dövlət artan imkanlarını vətəndaşların rifahına yönəldəcək.

Yeni iqtisadi modelə keçid daha hansı üstünlükləri vəd edir?

**Millət vəkili Tahir Mirkişili "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, dünyada ən yeni və uğurlu iqtisadi model kimi sosialyönümlü bazar iqtisadiyyatı modeli sayılır:** "Bu modelin də rüşeymləri ondan ibarətdir ki, bazar iqtisadiyyatının bir çox hallarda həll edə bilmədiyi sosial məsələlər dövlətin müdaxiləsi və tənzimləməsi ilə öz həllini tapır. Yəni vətəndaşların xeyrinə həll edilir.

## *Tahir Mirkişili: "Bu modelin də rüşeymləri ondan ibarətdir ki..."*



*"Aparılan islahatlar və yeni modelə keçid həm vətəndaşların mənafeyinə xidmət edir, həm iqtisadiyyatı gücləndirir, həm də insanların gələcəyə inamını artırır"*

Dünyada gedən prosesləri də yaxından izləsəniz görərsiniz ki, insanlarda daha çox sosial qayğıya ehtiyac dövlətlərin rolunu da getdikcə dəyişməkdədir. Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas məqsədlərindən biri məhz sosialyönümlü bazar iqtisadiyyatı modelinin tapılmasına yönəlib. Bunun da iki mühüm səbəbi və nəticəsi var. Əsas səbəb ondan ibarətdir ki, sosialyönümlü iqtisadiyyatı qurmaq üçün dövlət iqtisadi cəhətdən çox güclü olmalıdır, vətəndaş dövlətə inanmalıdır, eyni zamanda, iqtisadi resurs və potensial kifayət qədər olmalıdır. Biz son iki ayın nəticəsinə baxsaq görərik ki, iqtisadiyyatımız böyüyür və inkişaf edir. Ümumdaxili məhsul 3 faiz , qeyri-neft sənayesi 15 faiz artıb. Ölkəmiz turizmdən iki milyard dollardan çox gəlir əldə edib, inflyasiya isə cəmi iki faiz təşkil edib. Yeni neft sektoru ilə yanaşı, qeyri-neft sektoru və alternativ gəlir mənbələri də artıb. Bu da islahatların aparılmasında mühüm sayılan faktordur. Fransanın "Opinion Way" şirkətinin apardığı son rəy sorğusu da göstərdi ki, respondentlərin 90 faizi cənab Prezidentin həyata keçirdiyi islahatları dəstəkləyir. Bu onu deməyə əsas verir ki, aparılan islahatlar və yeni modelə keçid həm vətəndaşların mənafeyinə xidmət edir, həm iqtisadiyyatı gücləndirir, həm də insanların gələcəyə inamını artırır. Sadaladığım üç məsələ yeni iqtisadi modelin başlıca hədəfləridir. Bunun nəticəsində iqtisadiyyat daha dayanıqlı olur, xarici təsir faktorları minimuma endirilir və sonda vətəndaşlarımızın rifahı daha da yaxşılaşır".

**Məhəmmədəli QƏRİBLİ**

# Prezidentin məktəbli qızın faciəsini şəxsi nəzarətə götürməsindən hələ də bəziləri nəticə çıxarmayıb

**Bakının 162 nömrəli məktəbində Elina Hacıyeva adlı şagirdin intihar etməsi bir neçə gündür ölkə gündəmini daha çox məşğul edən mövzu oldu. Hadisəyə müxtəlif aspektlərdən yanaşıldı, ətrafında qızğın polemikalar aparıldı.**



*"Bəzən müzakirələri elə şəxslər davam edirlər ki, bunu onların ranqına görə istintaqa təzyiq elementi kimi də dəyərləndirə bilərik"*

## *Mehman Muradlı: "Artıq bu mövzuda diskussiyaları dayandırmağın zamanıdır"*

Hətta müzakirələrə millət vəkilləri, televizya kanalları, dövlət qurumlarının rəsmiləri belə qoşuldu. Kifayət qədər ictimailəşən bu mövzuya Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın səviyyəsində reaksiya verildi. Bildirildi ki, ölkə rəhbərliyi bununla bağlı bütün dövlət qurumlarına xüsusi tapşırıqlar verib ki, məsələ ciddi şəkildə araşdırılsın. Ancaq maraqlıdır ki, bundan sonra da bu mövzu ətrafında polemikalar aparılır. Hətta bəzi tanınmış şəxslərin, millət vəkillərinin öz mövqelərində israr nümayiş etdirdikləri ortadadır. Bu məsələdə birmənalı fikir və ya mövqe ortaya qoyulmur. Haçalanan mövqelərdə direktoru müdafiə edənlərdən tutmuş, intihar edən şagirdin valideynlərini tənqid edənlər, hətta bunu cəmiyyətdəki problemlərlə izah edənlər də tapılır. Artıq ortada elə bir mənzərə yaranıb ki, sanki hər bir şəxs cəmiyyəti narahat edən problemləri, olan neqativlikləri bu intihar üzərindən gündəmə gətirmək istəyir. Ölkə rəhbərliyi bu məsələni nəzarətə götürəndən sonra işlə bağlı istintaqın aparıldığı bir zamanda belə bir mövzu ətrafında yenidən qızğın fikir mübadiləsi aparmağa zərurət varmı?

**Hüquqşünas Mehman Muradlı qəzetimizə bildirdi ki, cəmiyyət baş verən hadisəyə lazımi təpkisini göstərdi:** "Bu məsələyə adi intihar kimi baxmaq da olmazdı. Təbii ki, azyaşlını buna vadar edən səbəblər ətrafında ciddi müzakirələr aparılmalı idi. Bunun xeyirli və ziyanlı tərəfləri də oldu. Xeyirli tərəfləri odur ki, eləqədar qurumlar, məktəblər özlərində olan çatışmazlıqları dərk etdilər. Ziyanı isə bu oldu ki, həmin mövzu ətrafında bəzi saytlar özlərinə İP yığmaq yarışına girdilər. Hətta ölən körpənin adına nə bacardılarsa, onu da yaxdılar. Ən əsası isə budur ki, bu ciddi məsələyə ölkə rəhbərliyi səviyyəsində reaksiya verildi. Artıq bu mövzuda diskussiyaları dayandırmağın zamanıdır. Çünki istintaq gedir. Özü də ölkənin birinci şəxsinin birbaşa nəzarətində olan istintaqdan söz gedir. Yəni burada hansısa korporativ maraqlar güdülə bilməz. Kimin təqsiri varsa, mütləq cəzasını alacaq. Bu səbəbdən də əlavə müzakirələrin aparılması istintaqın gedişinə mane ola bilən faktordur. Hətta bəzən müzakirələri elə şəxslər davam edirlər ki, bunu onların ranqına görə istintaqa təzyiq elementi kimi də dəyərləndirə bilərik. İstintaqın nəticəsini gözləmək lazımdır. Kimin təqsirkar, kimin həbs edilməli olduğunu sosial şəbəkələr yox, istintaq müəyyən edir"

**Məhəmmədəli QƏRİBLİ**

## Ermənilərin Qarabağda narkovasitələri istehsal və tranzit etməsi terroru çiçəkləndirir

# Bakıdan dünyaya silkələyici mesaj - bəşəriyyəti məhv edən "ağ ölüm"ün kökü Azərbaycan torpaqlarının işğal altında saxlanmasıdır...

*Bakıda Narkotiklərlə Mübarizə üzrə XXXVİ Beynəlxalq Konfrans açıldı...*

**Aprelin 15-də Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) işə başlayıb.**

Azərbaycan Dövlət Gömrük Komitəsinin fəal iştirakı ilə təşkil edilən, "Qlobal tərəfdaşlıqların səfərbər edilməsi" mövzusuna həsr olunan Bakı konfransının məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksək vəzifəli rəsmiləri bir araya gətirmək, bu bəşəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaqdır.

Dünyanın 150-dən çox ölkəsindən 500-dək nümayəndənin qatıldığı beynəlxalq konfrans narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından mütəxəssislərin bəhrələnməsinə şərait yaradacaq.

Baş nazir Novruz Məmmədov beynəlxalq konfransda çıxış etdi və bildirdi ki, Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Konfrans dünyada narkotiklərə qarşı mübarizə sahəsində təşkil edilən ən mötəbər tədbirlərdən biridir.

Novruz Məmmədov deyib: "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni vahid strategiya çərçivəsində həyata keçirmək Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir.Bu istiqamətdə təbliğat işlərinin əhatə dairəsi genişlənmiş, kompleks profilaktik tədbirlər görülmüşdür.

Beləliklə, ölkəmizdə narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdırılması üçün elmi və praktiki araşdırmaların aparılması və digər məsələlərin həlli istiqamətində sistemli fəaliyyət davam etdirilməkdədir.

Bu gün Azərbaycan Respublikası Prezidentinin apardığı məqsədyönlü siyasət və həyata keçirdiyi dərin iqtisadi islahatlar nəticəsində ölkəmiz uğurla inkişaf edir.Ölkədə görülən işlərə beynəlxalq təşkilatlar, dünyanın aparıcı maliyyə qurumları tərəfindən yüksək qiymət verilir. Xüsusi qeyd etməliyəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünyada 25-ci yerdədir.

Bizim bütün iqtisadi göstəricilərimiz müsbətdir.Onlardan bəzilərini diqqətinizə çatdırmaq istəyirəm. Keçən il Azərbaycanda iqtisadi artım 1,4 faiz olmuşdur. Qeyri-neft sektoru 1,8 faiz, qeyri-neft sənaye məhsulu isə 9,1 faiz artmışdır.

Ölkə iqtisadiyyatına son 15 il ərzində 250 milyard dollardan artıq sərmayə qoyulmuş və Azərbaycan iqtisadiyyatı üç dəfədən çox artmışdır. Yoxsulluq səviyyəsi 49 faizdən 5,4 faizə endirilmiş, 2 milyona yaxın yeni iş yeri yaradılmışdır və hazırda işsizlik 5 faiz səviyyəsindədir.

Ötən il Azərbaycan üçüncü peykini orbitə çıxararaq, kosmik dövlət kimi öz mövqeyini daha da möhkəmləndirdi. 2018-ci ildə "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı olmuş, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı işə başlamışdır. Beləliklə, Azərbaycan həm də dünyada logistik mərkəz və tranzit ölkə kimi tanınmışdır.

Son illər ərzində ölkədə infrastrukturun yaradılması ilə bağlı möhtəşəm işlər görülmüşdür. 2004-cü ildən bu günə qədər, ümumilikdə,15 min kilometr avtomobil yolu çəkilmişdir.Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə dünyada 30-cu, yol infrastrukturunun keyfiyyətinə görə isə 34-cü yerdədir.

Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında əldə olunmuş nailiyyətlər narkomaniyaya qarşı mübarizənin gücləndirilməsində mühüm rol oynamaqla yanaşı, bu sahədə hələ də mövcud olan nöqsanların aradan qaldırılması məqsədilə dövlət və hüquq-mühafizə orqanları qarşısında konkret tələblər qoyur.

Aparılmış islahatlar və həyata keçirilmiş tədbirlər nəticəsində son 5 ildə dövriyyədən 8 ton 354 kiloqram narkotik vasitə çıxarılmışdır. Ölkəmizdə ən müasir avadanlıqlarla təchiz olunmuş yeni narkoloji müalicə mərkəzi tikilib istifadəyə verilmişdir.

Beynəlxalq təcrübə nəzərə alınmaqla aidiyyəti orqanların mütəxəssislərinin iştirakı ilə ali və orta ixtisas təhsili müəssisələrində, internat məktəblərində, cəzaçəkmə müəssisələrində mütəmadi olaraq maarifləndirmə tədbirləri, sosial sorğular keçirilmiş, təcrübə mübadiləsi məqsədilə beynəlxalq təşkilatlarla birgə seminarlar, təlimlər təşkil edilmişdir.

Bir məqamı da vurğulamaq istərdim ki, dünya ictimaiyyəti hərbi münaqişə zonalarından narkotiklərin qanunsuz dövriyyəsi üçün istifadə olunmasından narahatlıq hissi keçirir.Azərbaycan da belə bir problemlə üzləşmişdir. Bildiyiniz kimi, artıq 25 ildən çoxdur ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ətraf 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal altındakı həmin ərazilərdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır.

Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizə cəlb edilən şirkətlərin iqtisadi fəaliyyəti işğalın davam etdirilməsinə, eləcə də narkotrafik və digər cinayət hallarına şərait yaradır. Bunların aradan qaldırması üçün işğal olunmuş ərazilərdə iqtisadi, maliyyə fəaliyyətlərinin, pul köçürmələrinin, sərmayə yatırılmasının qarşısı alınmalıdır.Azərbaycan tərəfindən sözügedən vəziyyətə nəzarət edilməsi məqsədilə müvafiq "qara siyahılar" tərtib olunur. Bununla bağlı Azərbaycan işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətə cəlb olunan fiziki və hüquqi şəxslərin mənsub olduğu ölkələri müvafiq tədbirlər görməyə çağırır.



Hazırkı beynəlxalq konfrans bu cür qeyri-qanuni iqtisadi fəaliyyətin qarşısını almaq üçün aidiyyəti ölkələrə birbaşa müraciət etmək imkanı vardır. Ümidvarıq ki, bu istiqamətdə görülən ciddi tədbirlər öz müsbət töhfəsini verəcəkdir".

Çıxışının sonunda Baş nazir Novruz Məmmədov əmin olduğunu bildirib ki, konfrans iştirakçıları Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Konfransda səmərəli müzakirələr, qarşılıqlı hörmət prinsipləri əsasında açıq dialoq aparacaq, Azərbaycan paytaxtından bəşəri bəlaya qarşı mübarizənin gücləndirilməsi üçün dünyaya yeni mesajlar verəcəklər.

x x x

Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov konfransın yüksək səviyyədə təşkili üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin ölkəmizin sosial və təhlükəsizlik siyasətinin prioritetlərindən olduğunu vurğulayan Dövlət Komissiyasının sədri bildirdi ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi 27 ildir işğal altında saxlanır, 1 milyondan artıq soydaşımız qaçqın və köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə, ATƏT-in və Avropa Şurasının müvafiq qərarlarına baxmayaraq, Ermənistan torpaqlarımızı bu gün də işğal altında saxlayır. İşğal nəticəsində Azərbaycanın İranla dövlət sərhədinin 132 kilometrlik hissəsi nəzarətsiz zonaya çevrilib. Bu fakt BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin 2010-cu il Dünya Narkotiklər Hesabatında da əksini tapıb. Həmin ərazilərdən Avropaya və digər ölkələrə güclü narkotik axını həyata keçirilir. İşğal olunmuş torpaqlarımızda ermənilər tərəfindən narkotik tərkibli bitkilərin becərilməsi, yeni növ narkotiklərin sintezi üzrə laboratoriyaların açılması, narkotiklərin istehsalı və tranzit bazasının yaradılması, onun satışından əldə edilən külli miqdarda gəlirin yeni silahların alınması, terrorçu qrupların yaradılması və onlara təlimlər keçirilərək digər münaqişə zonalarına istiqamətləndirilməsi təhlükənin miqyasını daha da artırır.

Dünyada 275 milyon insanın narkotik istifadəçisi olduğunu, narkosənayenin birillik dövriyyəsinin 400 milyard dollar təşkil etdiyini deyən Əli Həsənov qeyd etdi ki, Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, hər il narkoistifadədən ölənlərin sayı 450 minə çatıb. Bu, müasir dövrdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı daha səmərəli mübarizədə konvensiyalara, mübarizə üsullarına yenidən baxılmasının və ciddi islahatların reallaşdırılmasının zəruriliyini ortaya qoyur.

x x x

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin milli, regional və beynəlxalq səviyyələrdə cinayət növü kimi qəbul olunmasını, bu problemin həllinin beynəlxalq əməkdaşlıq tələb edən ümumi məsuliyyətə çevrildiyini deyən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri nantı Səfər Mehdiyev bildirdi ki, bu baxımdan, beynəlxalq təşkilatların, dünya ölkələrinin aidiyyəti qurumlarının dəstəyilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə əməkdaşlıq çərçivəsində mübarizə tədbirləri mühüm əhəmiyyət kəsb edir. Komitə sədri qeyd edib ki, bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ölkəmizin ayrı-ayrı dövlət strukturları, hüquq-mühafizə orqanları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, təhsil və səhiyyə qurumları birgə mübarizə aparmaqla bu bəlanın qarşısının alınmasında uğurla fəaliyyət göstərirlər.

x x x

ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer ölkəmizdə yenicə fəaliyyətə başlamasına baxmayaraq, xalqımızın yüksək qonaqpərvərliyinin qısa müddətdə onda böyük məmnunluq doğurduğunu ifadə etdi.

Diplomat bildirdi ki, Azərbaycan Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransa (IDEC) yüksək səviyyədə evsahibliyi etməklə bu mühüm məsuliyyətin öhdəsindən uğurla gəlib. O, konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və aidiyyəti şəxslərə və qurumlara minnətdarlığını bildirdi.

Narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin cəmiyyətdə ciddi fəsadlara yol açdığını diqqətə çatdıran diplomat bu sahədə uğurlu mübarizədə beynəlxalq əməkdaşlığın önəmini xüsusi vurğuladı. Qeyd etdi ki, Azərbaycan bu istiqamətdə beynəlxalq əməkdaşlığa mühüm töhfələr verir.

Səfir bildirdi ki, ABŞ-ın etibarlı tərəfdaşı olan Azərbaycan 2002-ci ildən Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatlarda fəal iştirak edir, həmin missiyanın dəstəklənməsi üçün fəal logistik dəstək verir. Bu töhfələr narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə də mühüm rol oynayır. Azərbaycan bu dəstəyi ABŞ ilə yanaşı, digər ölkələrə də göstərir.

Səfir Örl Litzenberqer qeyd etdi ki, mühüm geosiyasi məkanda yerləşən Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi ölkədə digər sahələrlə yanaşı, iqtisadiyyatın və ticarətin inkişafına da əhəmiyyətli töhfə verib. Azərbaycan dövlətinin rəhbərliyi yeni müasir ticarət yollarından narkotik vasitələrin dövriyyəsində istifadə edilməsinin qarşısını almaq üçün qətiyyətli tədbirlər həyata keçirir. Bu mübarizədə birgə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, beynəlxalq konfransın ölkəmizdə keçirilməsi barədə ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının təklifi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Tədbirlə bağlı bəzi təşkilati məsələlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 dekabr tarixli Sərəncamına əsasən, işçi qrupu yaradılıb və konfransın Tədbirlər Planı təsdiq edilib.

Bəşəriyyəti ciddi narahat edən, yeni təhlükələrə və bəlalara yol açan narkotiklərə tələbatın azaldılması yollarının tapılması baxımından nadir platforma olan Beynəlxalq Konfransın əsası 1983-cü ildə qoyulub. Sonradan o, 130-dan çox ölkədən olan nümayəndələrin iştirakı ilə keçirilən ümumdünya forumuna çevrilib. Aprelin 17-dək davam edəcək Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılacaq, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar veriləcək.

# Azərbaycanın Rusiya-Çin hərbi təlimlərinə qatılması yeni geosiyasi proseslərdən xəbər verir

**Rəsmi Moskva 2019-cu ilin sonunda keçirilməsi nəzərdə tutulan Rusiya-Çin genişmiqyaslı hərbi təlimlərinə Azərbaycanı da müşahidəçi qismində dəvət etmək niyyətindədir. Xəbər verildiyi kimi, bu barədə Rusiya Milli Qvardiya Qoşunlarının baş komandanı, general Viktor Zolotov deyib.**

*"İki ölkə arasında hərbi sahədə əməkdaşlıqla bağlı müxtəlif müqavilələr imzalanıb"*

Onun sözlərinə görə, bu təlimlər Rusiya Qvardiya Qoşunlarının beynəlxalq fəaliyyətində ən böyük hadisələrdən biri olacaq: "2019-cu ilin sonunda çinli həmkarlarla keçirilməsi planlaşdırılan genişmiqyaslı təlim Rusiya Qvardiyasının beynəlxalq həyatında ən böyük hadisə olmalıdır. Təlimlərə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan və Özbəkistan müşahidəçi qismində dəvət olunacaqlar. Bu cür əməkdaşlıq son dərəcə aktualdır".

V.Zolotov qeyd edib ki, Rusiya Qvardiyası tərəfdaşlarla uzunmüddətli əsasda əməkdaşlıq qurur. Onun fikrincə, Rusiya Qvardiyası terrorizm, cinayətkarlığa qarşı mübarizə, ictimai asayiş və təhlükəsizliyin təmin olunması sahələrində təcrübə mübadiləsi ilə yanaşı, birgə tədbirlərin, o cümlədən, beynəlxalq təlimlərin keçirilməsində də maraqlıdır: "Bu məqsədlə biz 2025-ci ilə qədər analoji vəzifələri yerinə yetirən xarici həmkarlarımızla əməkdaşlığa dair idarələrarası sazişlər bağlamağı planlaşdırırıq".

Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycanın belə böyük bir təlimə dəvət olunacağı Ermənistanda ciddi narahatlığa səbəb olub. Erməni şərhçi Karen Ambartsumyan yazır ki, "bizim strateji müttəfiqlərimiz" Ermənistana xəyanət edirlər: "Azərbaycan bu təlimlərə tək ölkə kimi dəvət olunmur, lakin dəvət olunacaq ölkələr arasında Özbəkistan və Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olmaması bizi narahat etməyə bilməz".

Görünən odur ki, Azərbaycanın inkişafı, regionda artan rolu ölkənin geosiyasi əhəmiyyətini, nüfuzunu artırır. Azərbaycanın strateji bir məkanda yerləşməsi bu baxımdan özünəməxsus rola malikdir. Bütün bunlarla yanaşı, Azərbaycanın Rusiya-Çin genişmiqyaslı hərbi təlimlərinə dəvət olunması nə deməkdir?

### İbrahim Rüstəmli: *"Sözügedən təlimlərə ölkəmizin dəvət olunmasını Rusiya tərəfindən Azərbaycana verilən önəm kimi dəyərləndirirəm"*




**Məsələyə münasibət bildirən hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant İbrahim Rüstəmlinin sözlərinə görə, bu, Azərbaycanın roluna verilən önəmin göstəricisidir:** "Ona görə də belə böyük hərbi təlimlərə Azərbaycan dəvət edilir. Azərbaycanla Rusiya arasında hərbi sahədə əməkdaşlıqla bağlı müxtəlif müqavilələr imzalanıb. Rusiya Azərbaycana bir sıra silahlar ixrac edir. Rusiya silahları dünyada bir sıra parametrlərə görə seçilir. Coğrafi şəraitə görə bu silahlardan istifadə səmərəlidir. Bununla yanaşı, iki ölkə arasında kadr hazırlığı ilə bağlı əlaqələr var. Rusiya Azərbaycanın regiondakı roluna xüsusi önəm verir. Bunun nəticəsidir ki, belə böyük təlimlərə Azərbaycan da dəvət edilir. Siyasi müstəvidə Azərbaycanla Rusiya arasında yaxşı münasibətlər mövcuddur. İki ölkədə mədəniyyət günləri keçirilir və s. Ona görə də sözügedən təlimlərə ölkəmizin dəvət olunmasını təsadüfi saymıram. Bunu Rusiya tərəfindən Azərbaycana verilən önəm kimi dəyərləndirirəm. Dəvət olunan ölkələrin siyahısına nəzər salsaq görərik ki, bir sıra postsovet dövlətləri təlimlərə dəvət edilməyib.

Baxmayaraq ki, onların içində elə dövlətlər var Rusiya ilə hərbi sahədə çox yaxın əməkdaşlıq edirlər. Ancaq Azərbaycana bu məsələdə xüsusi diqqət göstərilib. O baxımdan, Azərbaycanın artan nüfuzu və bundan yaranan reallıq ortadadır".

***Vidadi ORDAHALLI***

# İrandan Ermənistana açıq xəbərdarlıq - çayları çirkləndirməyi dayandırın...

**Qətərin paytaxtı Dohada keçirilən Beynəlxalq Parlamentlərarası İttifaqın 140-cı iclasında iştirak edən İran parlamentinin sədri Əli Laricani Ermənistan parlamentinin sədri Ararat Mirzoyanla görüşüb. Sözügedən görüşdə İran parlamentinin sədri Araz çayını çirkləndirdiyinə görə Ermənistana ciddi iradını bildirib.**



*"İran özünün maraqlarını qorumaq üçün artıq ciddi addımlar atmağa məcbur olacaq"*

Əli Laricani diqqətə çatdırıb ki, Ermənistan hökuməti ekoloji problemləri diqqətdə saxlamalı və Araz çayına çirkab suların axıdılmasına son qoymalıdır. İran parlamentinin sədri bildirib ki, çayın çirkləndirilməsi ekoloji problem yaratmaqla yanaşı, İranın kənd təsərrüfatına da ziyan vurur.

Ermənistan parlamenti sədrinin diqqətinə çatdırılıb ki, ümumi istifadədə olan Araz çayının çirkləndirilməsi beynəlxalq qanuna və normalara ziddir. Rəsmi İrəvandan qəti şəkildə tələb olunub ki, Araz çayının çirkləndirilməsi məsələsi aradan qaldırılsın.

Ermənistanın Araz çayını çirkləndirməsi uzun illərdir müşahidə olunur. Orada yerləşən mis və qızıl zavodlarından Araz çayına müxtəlif

### Aydın Mirzəzadə: *"Ermənilər hesab edirlər ki, onların təsərrüfat fəaliyyətinin zərərini digər ölkələr öz üzərlərinə götürməlidirlər"*

kimyəvi və digər tullantılar axıdılır. Nəinki mis, digər zavodların tullantıları Araz çayına yönəldilir. Tullantıların bir qismi Araz çayına tökülən çaylar vasitəsilə gəlir. Xüsusən də Azərbaycanın işğal olunmuş ərazilərindən keçərək Araza tökülən Oxçu çayında çirklənmənin səviyyəsi daha böyükdür. Bir sözlə, Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantılarının təsiri nəticəsində Araz çayında və onun qollarında biogen maddələrin miqdarının normadan dəfələrlə artıq olması müşahidə olunur.

Ermənistanın Araz çayını çirkləndirməsinə dəfələrlə Azərbaycan öz etirazını bildirib. Bir neçə dəfə müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycan bu məsələni qaldırıb. Azərbaycanın Ermənistanla münaqişə vəziyyətində olması səbəbindən, bir sıra hallarda beynəlxalq qurumlar bunun üstündən sükutla keçiblər. Araz çayı həm də İrandan keçir. Ancaq İran indiyə qədər Ermənistana Araz çayını çirkləndirdiyinə görə sərt etiraz etməmişdi. İlk dəfədir İranın ən yüksək səviyyəli rəsmi şəxslərindən biri Ermənistan rəsmisinə etiraz edir. O baxımdan, ekspertlər bunu necə dəyərləndirirlər?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, İranın Arazın çirkləndirilməsi ilə bağlı Ermənistana rəsmi müstəvidə etiraz etməsi müsbət haldır:** "Təəssüflər olsun ki, beynəlxalq qurumlar dəfələrlə Ermənistanın beynəlxalq hüquq normalarına zidd olaraq ekologiyanı çirkləndirən hərəkətlərinə göz yumublar. Baxmayaraq ki, Azərbaycan bununla bağlı kifayət qədər fakt ortaya qoyur və bu məsələnin diqqətdə saxlanmasına çalışır. Artıq vəziyyət o həddə gəlib çatıb ki, İran Araz çayının çirkləndirilməsi ilə bağlı Ermənistanla çox ciddi şəkildə danışmalı olur. Problem ondadır ki, Ermənistan həm öz ərazisində, həm də Azərbaycanın işğal olunmuş ərazilərində apardığı təsərrüfat işlərində zərərli maddələrdən çox istifadə edir. Ermənistan bir sıra hallarda bunu öz ağır iqtisadi vəziyyəti ilə əlaqələndirir. Bildirirlər ki, ətraf mühitə zərər vurmayan maddələr almaq üçün kifayət qədər vəsaitləri yoxdur. Bu baxımdan, ermənilər hesab edirlər ki, onların təsərrüfat fəaliyyətinin zərərini digər ölkələr öz üzərlərinə götürməlidirlər. Bu da artıq İran tərəfdə böyük narazılığa səbəb olub. Bu, Araz sahilindəki bölgələrdə kənd təsərrüfatı və insanların normal yaşaması üçün böyük təhlükə törədir. Laricaninin etirazı onu göstərir ki, Ermənistanın qeyri-sivil hərəkətlərinin artıq digər dövlətlər üçün də təhlükə yaratdığının şahidi oluruq. Fakt artıq ortadadır. İran Ermənistana ciddi etirazını bildirdi. Ermənistan bundan nəticə çıxarmayacaqsa, şübhəsiz, İran özünün maraqlarını qorumaq üçün artıq ciddi addımlar atmağa məcbur olacaq".

***Vidadi ORDAHALLI***

# Mübariz Mənsimovun SOCAR-a düşmən kəsilməsinin "sirri"...

**Bir müddət əvvəl Azərbaycan əsilli oliqarx Mübariz Mənsimovun siyasətə meyllənmək cəhdlərindən yazmışdıq. Onun siyasətlə məşğul olmaq istəməsi təəccüblü deyil. Ancaq maraqlıdır ki, M.Mənsimov, başqa iş adamları kimi, öz hobbisini vətəndaşı olduğu ölkədə deyil, Azərbaycanda həyata keçirməyə çalışır.**

Son zamanlar xüsusilə də sosial şəbəkələrdə aktivləşən M.Mənsimov Azərbaycan hakimiyyətinə qarşı radikal mövqedə dayanan müxalif liderlərindən heç nəyi ilə fərqlənməyən mövqelər sərgiləməyə başlayıb. Bu fəaliyyətin yeni başladığı zamanda adamda sual yaranırdı: milyarder kimi qələmə verilən bir adamın sosial şəbəkələrdə vaxt keçirməyə bu qədər zamanı hardandır? Güman edilirdi ki, yəqin onun adından yaradılan saxta profillər bu işlə məşğuldurlar. Sonra işin arxasından Mənsimovun özü çıxanda, adamda ilk olaraq belə təəssürat yarandı ki, onun işləri heç də yaxşı getmir. Çünki yalnız nəyi var əlindən çıxan biri sosial şəbəkələrdə belə kin-küdurət, qəzəb püskürə bilərdi. Son bir ildə onun virtual fəaliyyətini təhlil etdikdə görünür ki, Mübariz Mənsimov Azərbaycan dövlətinə qarşı hansısa kampaniyaçılığın aparıldığı dönəmdə aktivləşməyə başlayır. Bizim radikal müxalif dairələr isə ona pullu şikar gözündə baxaraq, hər vasitə ilə özünə cəlb etmək istəyirlər. Bu xüsusda ona verilən media dəstəyi siyasətdə diletant olan iş adamını daha da həvəsləndirir və bundan təsirlənərək tənqidin dozasını get-gedə artırmağa başlayır. Mənsimov, əslində, bütün Azərbaycan hakimiyyətini hədəf alan açıqlamalarını SOCAR üzərindən edir. Hədəf olaraq SOCAR-ı seçir və həmin mövzuda sadə vətəndaşların psixikasına hesablanan populist çıxışlar edir. Son paylaşımlarında isə təhqirə, söyüşə, hətta şantaja keçib.

Axırıncı açıqlamasında M.Mənsimov qeyd edib ki, Azərbaycanda olan bəzi məmurlar hələ də anlamırlar ki, onlarla məşğul olmağa başlamayıb: "Əgər mən sizə cavab verməyə başlasam, öncə arxasına sığındığınız dövlət sizdən hesabat tələb edəcək. Bunun da zamanı gələcək.

Birincisi, məni müxalifətçi adlandıranlara üz tutub soruşuram: doğrunu demək, birliyə, əl tutmağa çağırmaq nə zamandan müxalifət olmaq olub? Nə vaxtdan SOCAR-a söz deyəndə dövlətə qarşı çıxmış olursan?! Qazın limitlə xalqa, erməni kilsələrinə pulsuz verilməsini mən demirəm. Bir-birimizə necə nifrət və paxıllıq etdiyimizi də deməyə ehtiyac yoxdur. Bu, bariz ortada.

Təbii, sizin üçün, şərəfini pula satan köpəklər üçün bulağın suyunun quruması faciədir. Nəsə yazmalısınız, yazın. Amma belə absurd yazılar deyil. Bir zamanlar bir neçə bəy əfəndi mənə belə bir şey demişdi. Bir jurnalist var, gördüm məndən yazmağa başladı, köpək kimi ağzına pul atdım, hürməyi dayandı. Sizdən deyirdi...

Beyinsizlər, deyim bir daha bilin ki, mənim heç erməni ortağım olmayıb, olmayacaq da. Mən bir erməni bici ilə bir masaya oturmadım. Qaldı adını yazdığınız o ermeniyə, bəli, rastlaşmışıq. Onu eşşək kimi döydüyümü Türkiyədə hər kəs bilir. Necə ki, ermənilərin 1 nömrəli düşməni olduğumu.

SOCAR-a gəldikdə, kimin kimə ziyan vurduğunu və kimin kimdən oğurluq etdiyini İngiltərə məhkəməsi müəyyən edəcək. "Palmali" SOCAR-ı külli miqdarda ziyan vurduğuna görə məhkəməyə verib. Ey ucuz adamlar!"

Göründüyü kimi, M.Mənsimovun bu açıqlamasında təhqir, şantaj notları açıq-aydın sezilir. Bir müddət əvvəl M.Mənsimov birdən-birə durub dedi ki, tankerlərinə Məhəmməd Əmin Rəsulzadə və Əbülfəz Elçibəyin adını vermək qərarına gəlib. Onda da bu hərəkəti təhlil etdik. Haqlı olaraq ona sual etdik ki, bu iki şəxsiyyətin adı tankerdən də böyük yerlərə verilməyə layiqdir, ancaq sizin yadınıza niyə indi düşüb? Doğrudan da maraqlı idi ki, bəyəm bu günədək M.Mənsimovun yalnız indi "kəşf" etdiyi tarixi şəxsiyyətlərin adı gündəmdə olmayıb? Nə əcəb sabiq MTN şefi Eldar Mahmudovun atasının adına tanker düzəldib okeana buraxanda Rəsulzadə ilə Elçibəy yada düşmürdü? Elə həmin vaxt da bizim bu sorğumuza M.Mənsimov urapatriotik tərzdə cavab vermişdi, guya tanımadığımız iki tarixi şəxsiyyətin uğurlarını nəzərə çatdırmaqla kifayətlənmişdi. Yəqin ki, M.Mənsimov öz hərəkətlərindəki qərəzi görə bilmir. Amma kənardan bu aydın sezilir. İlk olaraq sual olunur: Mənsimov əvvəl dost olduğu SOCAR və onun rəhbərliyinə qarşı niyə belə aqressivdir? Aparılan araşdırmalar göstərir ki, bunun obyektiv səbəbləri var.

Mənsimovun "Palmali" şirkəti ilə SOCAR arasında tərəfdaşlığın tarixi 2000-ci illərin ortalarından başlayıb. Sonra Mənsimovun SOCAR qarşısında müəmmalı şəkildə böyük borcları yaranıb. Azərbaycan Dövlət Neft Şirkəti həmin borcların əvəzində "Palmali"nin 14 tankerini və digər aktivləri alıb. Üstəlik, bu aktivlərin alınmasından sonra belə, "Palmali"nin SOCAR-a nəhəng borclarının qaldığı haqda xəbərlər var. Bir vaxtlar Mənsimov aktivlərinin əlindən çıxmasına görə SOCAR-ı beynəlxalq məhkəmə ilə hədələyirdi, amma sonradan bundan vaz keçməli oldu. Əvəzində sosial şəbəkələr üzərindən müxalifətçiliyə başladı.

Maraqlıdır ki, Mənsimovun SOCAR-a ünvanladığı şantajlardan biri də "erməni kilsələrinə verilən qazla" bağlıdır. Bir qədər patriotik səslənən bu şüarla Mənsimov transver etdiyi sosial şəbəkələrdə özünə çoxlu "ura" qazanmış olur. Bəs görəsən Mənsimov doğrudanmı ermənilərə bu qədər nifrət bəsləyir, yoxsa bu da pafosun bir hissəsidir? Aparılan araşdırmalar göstərir ki, burda da Mənsimov səmimi deyil. Çünki onun ABŞ-dakı erməni diasporunun nüfuzlu nümayəndələrindən biri, mafioz Levon Termencyanla ortaqlığı barədə faktlar, sənədlər ortaya çıxıb.




L.Termencyan ABŞ-da kommersiya və yaşayış məqsədli daşınmaz əmlak biznesi ilə məşğul olan "SBK Holdings" adlı şirkətin sahibidir, şirkətin 800 milyon dollarlıq aktivləri var. ABŞ mediasının yazdığına görə, Termencyan bu ölkənin Daxili Təhlükəsizlik Departamenti tərəfindən "çirkli pulların yuyulmasına", vergidən yayınmaya və neft oğurluğuna görə istintaqa cəlb edilib. Mənsimov Termencyanla tərəfdaşlığını heç vaxt təkzib etməyib.

Çox maraqlıdır ki, Mənsimov biznesinin batmasının səbəbini SOCAR və Azərbaycanda gördüyü üçün, belə aqressiv mövqe ortaya qoyur. Əslində isə bunun səbəblərini İraq və Suriya ərazisi vasitəsilə apardığı şübhəli maliyyə əməliyyatları və biznesində axtarmalıdır. Dünyanın ən qüdrətli ölkələri tərəfindən fiksə olunan həmin məlumatlardan sonra Mənsimov çökməyə başladı. Burda SOCAR və Azərbaycanın nə günahı ola bilər ki?

***Məhəmmədəli QƏRİBLİ***

# Maliyyə Nazirliyi deputat Vahid Əhmədovun parlamentdəki fikrini kökündən inkar etdi



*"Palatanın hesabatında Maliyyə Nazirliyində nöqsanların aşkarlanması ilə bağlı bir cümlə də yoxdur"*

**Milli Məclisin aprelin 9-da keçirilən plenar iclasında Hesablama Palatasının ötənilki fəaliyyəti ilə bağlı hesabatın müzakirəsi zamanı deputat Vahid Əhmədovun ən çox nöqsan aşkarlanan qurumların siyahısında Maliyyə Nazirliyinin adını çəkməsi onun subyektiv yanaşmasıdır.**

Bu fikirləri Maliyyə Nazirliyinin mətbuat katibi Mais Piriyev "Trend"in sorğusuna cavab olaraq bildirib.

O qeyd edib ki, Palatanın 197 səhifədən ibarət olan 2018-ci il üzrə hesabatı ilə istənilən şəxs də tanış ola bilər və burda deputatın iddia etdiyi kimi Maliyyə Nazirliyində nöqsanların aşkarlanması ilə bağlı bir cümlə də yoxdur: "Ona görə də deputat Vahid Əhmədovun bu mövqeyinə və düşüncələrinə, onun hansı faktlara və məntiqə söykəndiyinə şərh verməyi artıq hesab edirik".

M.Piriyev həmçinin vurğulayıb ki, Maliyyə Nazirliyi Hesablama Palatasının təqdim etdiyi 2018-ci il üzrə hesabatı təqdir edir və dövlət büdcəsindən ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsi, artıq və əsassız ödənişlərin aşkar edilməsi, təqsirkar şəxslər hesabına həmin vəsaitlərin dövlət büdcəsinə bərpa olunması istiqamətində Palata tərəfindən görülən işləri tam dəstəkləyir və onunla bu istiqamətdə sıx əməkdaşlıq edir.

Mətbuat katibi həmçinin qeyd edib ki, Maliyyə Nazirliyinin apardığı nəzarət tədbirləri Hesablama Palatası ilə müqayisdə daha az sayda təşkilat və qurumları əhatə edir. Bununla belə, Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən dövlət büdcəsindən ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsinə nəzarətlə bağlı prinsipial və sərt addımlar atılır. Təkcə ötən ildə aparılan nəzarət tədbirləri nəticəsində 7 mln. manatdan çox əsassız ödənişlər aşkar edilib, ümumilikdə 55 təşkilat üzrə nöqsanlara hüquqi qiymət verilməsi məqsədilə sənədlər hüquq-mühafizə orqanlarına təqdim edilib.

Nazirlik rəsmisi bildirib: "Hesab edirik ki, büdcədən maliyyələşən təşkilatların rəhbərləri dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə xərclənməsinə nəzarəti daha da gücləndirməli, qanunun tələblərinə riayət etməli, büdcə intizamını pozan və mənimsəmələrə yol verənlərə qarşı sərt tədbirlər görməlidirlər",

**Son zamanlar Azərbaycanla Avropa İttifaqı arasında bağlanacaq Tərəfdaşlıq Sazişi ilə bağlı müxtəlif fikirlər səslənməkdədir. Xüsusilə erməni mediası və siyasi dairələri belə rəy formalaşdırmağa çalışırlar ki, güya Azərbaycan sözügedən sazişin imzalanmasında maraqlı deyil, bilərəkdən bu prosesi yubadır.**

# Avroittifaqla saziş məsələsində ermənilərin ortaya atdığı bir düşmən fikrə Azərbaycanda tərəf çıxanlar var...



Təəssüflər olsun ki, ölkənin daxilində olan bəzi müxalif mövqeli şəxslər və təsisatalar, hətta özünü bitərəf kimi qələmə verən bəziləri bu mövzuda erməni təbliğatının təsiri altına düşərək, lazımsız fikirlər səsləndirirlər. Daha doğrusu, həmin dairələr məsələdən faydalanaraq, ictimai fikirlə manipulyasiya etməyə cəhdlər göstərirlər. Hətta iddia edirlər ki, güya sazişin mətnində Azərbaycanın milli maraqlarına uyğun olmayan şərtlər yer alıb. Bəs əslində sazişdə belə məqamlar varmı və Azəraycan həmin sənədin imzalanmasını yubatmaqda maraqlıdırmı? Prosesdən məlumatlı olan ekspertlər qeyd edirlər ki, saziş üzərində iş davam etdirilir və sənəd hələ imzalanmağa hazır vəziyyətdə deyil. Xüsusilə sazişin Azərbaycan üçün prinsipal əhəmiyyət kəsb edən məqamları ilə bağlı tam razılıq əldə olunmayıb. Bu xüsusda Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov aprelin 4-də Brüsselə səfəri zamanı dediyi fikirləri xatırlatmaq lap yerinə düşər. XİN rəhbəri bildirmişdi ki, Bakı ilə Brüssel arasında imzalanacaq saziş 90 faiz razılaşdırılıb. Siyasi ekspertlər arasında bundan sonra belə bir sual aktualaşıb: "Görəsən, razılaşdırılmayan 10 faizdə nələr var?" Prosesdən məlumatlı olan ekspertlər iddia edirlər ki, rəsmi Bakı həmin sazişdə haqlı olaraq Azərbaycanın ərazi bütövlüyünün birmənalı vurğulanmasını istəyir, ancaq avropalı diplomatlar tərəddüd keçirirlər. Aydındır ki, rəsmi Bakı haqlı olaraq istəyir ki, sənəddə belə bir bənd yer alsın: "Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır". Avropa İttifaqı bilir ki, belə bir müddəanın sazişdə qeyd olunmasına yalnız bir ölkə etiraz edə bilər, o da Ermənistandır. Buna görə də, avropalı diplomatlar Ermənistanı da razı sala biləcək bir balansı yaratmaq istəyirlər. Hər halda, sazişin imzalanmasında gecikmənin baş verməsinin bu detalla bağlı olduğu daha inandırıcı görünür. Məhz bu səbəbdən də, ermənilər diqqəti əsas məsələdən yayındırmağa çalışaraq, sazişilə bağlı keçikməni başqa uydurma amillərlə izah etməyə çalışırlar. İdeya müəllifi Ermənistan olan bu tezisin ölkəmizin daxilindəki bəzi dairələr tərəfindən də dəstəklənməsi ciddi təəccüb doğurur. Həmin dairələr hətta iddia etməyə çalışırlar ki, güya Azərbaycanın Avropa İttifaqı ilə razılaşdırmadığı başlıca mövzu insan haqları mövzusu ilə bağlıdır.

Politoloq Yeganə Hacıyeva da "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu proses ətrafında ciddi manipulyasiyalara başlanıb: "Öncəliklə sazişin imzalanması ilə bağlı prosesin son il üçün gedişatında kiçik bir ekskurs etmək istəyirəm. Bilirsiniz ki, 2018-ci il Azərbaycan Prezidenti İlham Əliyevin istər Avropa İttifaqının mərkəzi siyasi, iqtisadi və təhlükəsizlik təsisatları, istərsə də strateji üzv ölkələrinin rəhbərləri ilə keçirdiyi görüşlər, imzalanan yeni sənədlər Azərbaycanın Aİ ilə münasibətlərini daha da möhkəmləndirdi və nəticə olaraq bu il Brüsseldə Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq prioritetləri üzrə danışıqlar yekunlaşdı, buna dair baza sənədi iyilun 11-də ayında paraflandı". Politoloqun sözlərinə görə, ardınca bu ilin payızında, oktyabrın 29-dan Bakıda Azərbaycanla Avropa İttifaqı arasında təhlükəsizlik üzrə ilk dialoq başlandı: "Azərbaycan hökümətinin Avropa Xarici Tədbirlər Xidməti baş katibinin müavini Jan Kristof Belardın başçılıq etdiyi Aİ nümayəndə heyətinin iştirakı ilə apardığı bu dialoq danışıqları daha ciddi mərhələyə keçirdi. Avropa İttifaqı və Azərbaycan arasında təhlükəsizlik üzrə dialoqunda tərəflərin ikitərəfli və çoxşaxəli təhlükəsizlik məsələlərinin müzakirəsi baş tutdu. Dialoq enerji təhlükəsizliyi, miqrasiya, sərhəd, insan alveri, transmilli cinayətkarlıq, narkotrafik və çirkli pulların yuyulması, aviasiya, nəqliyyat-logistika və əlbəttə, terrorizm və konfliktlərin həlli sahəsində təhlükəsizlik müzakirələri apardı. Aİ qitələrarası strateji keçid regionu olan Cənubi Qafqazda sülhün bərqərar olunmasında maraqlı tərəf olsa da, məhz bu regionda təhlükəsizliyin və dayanıqlı sülhün bərqərar olunması üçün hər hansı birbaşa təsir mexanizmlərinə malik deyil. Lakin Aİ bu regionda dayanıqlı sülhün əldə olunması üçün Ermənistana təzyiq və təsir vasitəsi kimi istifadə oluna biləcək informasiyalara, diplomatik və iqtisadi rıçaqlara malikdir. Azərbaycan isə haqlı olaraq strateji tərəfdaşlarından, xüsusilə enerji təhlükəsizliyində rol aldığı strateji tərəfdaşı Aİ-nin regionda beynəlxalq hüquq və normaların bərqərar olunması, dayanıqlı sülh və inkişafın əldə edilməsi istiqamətində malik olduğu bütün təsir və təzyiq vasitələrini istifadə etməsində israrlıdır". Yeganə Hacıyeva hesab edir ki, Avropa İttifaqı Azərbaycanla təhlükəsizlik məsələlərini iki istiqamət üzrə Aİ-Azərbaycan və Aİ - Cənubi Qafqaz kontekstindən qurmaqda maraqlıdır və Aİ Cənubi Qafqazda ölkələrlə münasibətlərini birinin diğərini qıcıqlandırmamaq istiqamətində qurmağa maksimum çalışır. Azərbaycan üçün Aİ ilə münasibətlərin nüvəsini əldə olunmuş razılaşmaların ərazi bütövlüyümüzün bərpa olunmasına xidmət etməsi, konfliktin həllində real irəliləyişlərin əldə olunması təşkil edir və Azərbaycan, bütün istiqamətlərdən olduğu kimi, Aİ ilə münasibətlərində də tərəflərin imkanlarını ümumi problemlərə, konkret olaraq isə konfliktin həllində istifadə olunmasında və ən əsası, bu yanaşmanın sazişin bəndlərində ifadə olunmasında israrlıdır. Çünki regionda mövcudluğu və maraqlı olan hər bir qlobal güc mövcudluğunun legitimləşməsi istiqamətində, regionda sülhün bərqərar olunmasında məsuliyyəti bölüşməli və beynəlxalq hüququn və ədalətin bərpası üçün səylərini əsirgəməməlidir".

Politoloqun sözlərinə görə, bir neçə gündür istər erməni mediasında, istərsə də onların Avropa qurumlarındakı uzantıları və deşifrə olunmuş agentlərin təqdimatında "Azərbaycan Aİ sazişindən Dağlıq Qarabağ konfliktindəki pozisiyasına görə imtina edir" propoqandası aparılır: "Eks səfır Arif Məmmədovun təxribatçı məlumatı əsasında yerli mediada Avropa Birliyi - Azərbaycan münasibətləri haqqında cəmiyyəti çaşdıracaq, həqiqətə uyğun olmayan rəylər gedir. Nəticə olaraq qeyd edim ki , Avropa Birliyi - Azərbaycan münasinətlərinin təməl prinsipi Beynəlxalq hüquqa söykənir və Avropa Birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Müəyyənləşməyən kimi göstərilməyə çalışılan Avropa Birliyi - Azərbaycan münasibətlərin əməkdaşlıq prioritetləri haqqında danışıqlar hələ keçən il başa çatıb. Əməkdaşlığın prioritetləri sənədi hələ keçən il iyulun 11-də Brüsseldə Federika Mogerini və Elmar Məmmədyarov arasında Avropa İttifaqının prezidenti Donald Tusk və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə imzalanıb. May ayında imzalanması palnalaşdırılan sənəd Strateji Tərəfdaşlıq Sazişidir. Sazişdə Azərbaycanın ərazi bütövlüyü tanınır və dəstəklənir".

***Məhəmmədəli QƏRİBLİ***

## Roma papası təcavüzkar Ermənistan rəhbərlərinin də ayağından öpərmi - Sudanda sülh üçün etdiyi kimi...

***Aydın Mirzəzadə:*** *"Doğrudan da Roma papası Frensisk sülhün olmasını arzu edirsə, qoy Ermənistan rəhbərliyinə də müraciət etsin"*

***Akif Nağı:*** *"... Cənubi Sudan prezidentinin ayağını öpübsə, mütləq bu səyi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, bölgədə sülhə nail olunması naminə də göstərməlidir"*




**Erməni saytlarının yaydığı məlumata görə, Roma papası Frensisk Dinka və Nuer xalqları arasında sülhə nail olduğu üçün Cənubi Sudan liderləri Salv Kiir Mayarditinayağını öpüb.**

Qeyd edək ki, Roma Katolik Kilsəsinin rəhbəri Papa Frensisk Vatikanda qəbul etdiyi sudanlı qonaqların ayağını öpüb. Qeyd edilənə görə, Cənubi Sudanın prezidenti Salva Kiir Mayardit və digər dövlət təmsilçiləri Papanı ziyarət ediblər. 82 yaşlı Papa Sudanda sülh və barışın davam etməsi üçün heyətdəki liderlərin ayağını öpüb. Papa Cənubi Sudanda baş verən böhranın yenidən vətəndaş müharibəsinə çevrilməməsi üçün təcili hərəkətə keçməyə çağırıb. Qeyd edək ki, 2013-ci ildə Dinka və Nuer xalqları arasında qanlı bir qarşıdurma baş verib, 2018-ci ilin sentyabrında isə siyasətçilər Cənub Sudan münaqişəsini sona çatdırmaq üçün razılaşma imzalayıb. Roma papası bildirib ki, burada sülhün təmin olunacağına ümid bəsləyir. "Sülh müqaviləsini imzalayan üç nəfərdən, bir qardaş olaraq, sülh içində qalmağı xahiş edirəm. Qəlbimin dibindən soruşuram: davam edin, daha çox problem olacaq, amma qorxmayın. Gedin, problemləri həll edin! Atalarınız arasında bir mübarizə olacaq, ancaq xalqla birlikdə qalacaqsınız. Yəni adi vətəndaşlardan millətin ataları olacaqsınız "-deyən papa bu dəfə də onları müharibə odunu söndürməyə çağırıb.

Roma papası bu addımı Qarabağ məsələsində niyə atmır? O nə üçün ermənilərin ayağını öpmür ki, Azərbaycanla sülhə gedin və işğal etdiyini əraziləri geri qaytarın?

Məsələni baki-xeber.com-a şərh edən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, papa Frensisk bu addımı Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi naminə də atmalıdır. "Çox istərdik ki, Qarabağ münaqişəsinin həlli istiqamətində də o bu addımı atsın. Doğrudan da, Roma papası Frensisk sülhün olmasını arzu edirsə, qoy Ermənistan rəhbərliyinə də müraciət etsin. Kaş ki, o, Ermənistanı öz qoşunlarını işğal etdiyi Azərbaycan torpaqlarından çıxarmağa, Xocalıda və digər ərazilərimizdə törətdikləri soyqırımlara, qanlı cinayətlərə görə Azərbaycan xalqından üzr istəməyə çağıraydı. Təəssüf ki, biz onun bu addımlarını görə bilmirik. Əgər o həqiqətən də ümumən dünyada sülhün olmasına çalışırsa, bu məsələni Ermənistan rəhbərliyi ilə müzakirə etməsi pis olmazdı"-deyə A.Mirzəzadə bildirdi.

Qarabağ Azadlıq Təşkilatının sədri, politoloq Akif Nağı qeyd etdi ki, Cənubi Sudanda baş verən hadisə zamanı bu ölkənin xristian əhalisi Cənubi Sudandan ayrılmaq istəyirdi və buna görə də uzun illər mübarizə apararaq Sudanı parçalanmağa təhrik etdilər. Bütün xristian dünyasının bu qüvvələri müdafiə etdiyini deyən A.Nağının bildirdiyinə görə, həmişə Papanı müsəlman dünyasında baş verənlər deyil, xristian aləmində yaşananlar narahat edib. "Bu isə bir dini lider üçün məqbul olmayan bir mövqedir. İslam dünyasında bu qədər qan tökülür lakin o heç bir reaksiya vermir. Yaxud Dağlıq Qarabağ probleminin həlli ilə bağlı heç bir təşəbbüs göstərmir. Xristian dünyasına aid bir xalq Qarabağda qətliamlar törədib, qan töküb, torpaqlarımızı işğal edib, ancaq bunu diqqətə almır, hətta Ermənistanın maraqlarına uyğun mövqe sərgiləyir. Bu da təəssüfedici haldır. Özünü dini lider hesab edən bir şəxs bütün dinlərin nümayəndələrinə eyni gözlə baxmalıdır. Təəssüf ki, bunu uzun illərdir görmürük. Yəqin ki, uzun illər də görməyəcəyik. Hesab edirəm ki, Roma papası Frensisk sülh naminə Cənubi Sudan prezidentinin ayağını öpübsə, mütləq bu səyi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, bölgədə sülhə nail olunması naminə də göstərməlidir. O bu məsələyə obyektiv yanaşmalı, kimin işğalçı olduğunu, qətl törətdiyini, qan tökdüyünü öz adı ilə deməlidir. Papa Ermənistandan tələb etməlidir, bu ölkənin rəhbərliyinə müraciət etməlidir ki, Azərbaycana qarşı törətdiyi bu cinayətlərə görə həm üzr istəsin, həm də işğala son qoysunlar. Düşünürəm ki, papa bu istiqamətdə təşəbbüslər göstərməlidir"-deyə A.Nağı bildirdi.

***İradə SARIYEVA***

**Ölkəmizin əsas strateji müttəfiqi sayılan Türkiyə ilə ABŞ arasında ziddiyətilər yaxın tezlikdə iqtisadi müstəvidə də özünü qabarıq surətdə göstərəcək. Çünki ABŞ-ın bütün təhdidlərinə rəğmən, Türkiyə Rusiyadan S-400 havadan müdafiə sistemləri almaqda israrlı olduğunu bildirir. İndiyə qədər ABŞ tərəfindən səslənən təhdidlər nəticə vermədiyindən, Vaşinqton artıq iqtisadi sanksiyalar məsələsini gündəmə gətirir.**

# Bakının iştirakı ilə yeni geoiqtisadi güc mərkəzi yaranır - ABŞ Türkiyəyə də sanksiya tətbiq etsə...




Ekspertlər bildirir ki, belə vəziyyət Türkiyənin ABŞ-dan daha da uzaqlaşması və Rusiya ilə bir qədər də yaxınlaşmasına səbəb olacaq. Türkiyə və Rusiya arasında bu yaxınlaşma artıq hərbi yox, həm də siyasi, iqtisadi sahələri əhatə edəcək. Belə vəziyyət, öz növbəsində Yaxın Şərqdə, Qafqazda tamam yeni bir şəraitin yaranmasına gətirib çıxaracaq. Burada məsələnin maraq doğuran məqamlarından biri isə tərəflərin öz yanında Azərbaycanı da görmək istəməsidir. Xatırladaq ki, Rusiya indiki vəziyyətdə iqtisadi müstəvidə Azərbaycanla əməkdaşlığı daha da genişləndirməyi düşünür. Bu xüsusda Rusiyanın sənaye və ticarət naziri Denis Manturov vurğulayır ki, rus şirkətləri Azərbaycan iqtisadiyyatına sərmayə yatırmaqda maraqlıdır: "Hətta Azərbaycanda birgə müəssisə yaradıb istehsal ediləcək məhsulları üçüncü ölkələrin bazarına çıxarmağı arzu edən şirkətlərimiz var". Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Dmitri Savelyev isə vurğulayır ki, Rusiya-Azərbaycan iqtisadi tərəfdaşlığının yaradılmasında ilk addımlardan normal iş prosesinə keçildiyi aşkardır: "Nəticələr göz qabağındadır: ölkələrimiz arasında əmtəə dövriyyəsi ötən il 2017-ci ilin göstəricilərini 19 faiz üstələyərək 2,5 milyard dollara çatıb. Həm Rusiya, həm də Azərbaycan üçün sənaye sektorunda - energetika, neft-qaz, avtomobil və maşınqayırma sahələrində müştərək müəssisələrin açılması böyük əhəmiyyət kəsb edir. Qarşılıqlı sərmayə qoyuluşu üzrə real nümunələrdən "SOCAR Polymer" layihəsini, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin tikintisini, həmçinin Gəncə Avtomobil Zavodunun Rusiyanın "KamAZ" və "Ural" Avtomobil Zavodları ilə əməkdaşlığı göstərmək olar. Azərbaycanda "Mi" helikopterlərinin texniki xidməti və təmirini həyata keçirəcək servis mərkəzinin yaradılması planlaşdırılır. Azərbaycan yüngül sərnişin, o cümlədən qanadlarla hərəkət edən sualtı gəmilərin tikintisində maraqlıdır. Artıq Rusiyanın üç şirkəti - "Rostselmaş", "Transmaşholdinq" və "Servis İnvest" azərbaycanlı tərəfdaşları ilə əməkdaşlığa dair sazişlər imzalayıb. Ümumilikdə sənaye sahəsində əməkdaşlıq tam sürətlə inkişaf edir".

Türkiyə ilə də Azərbaycanın iqtisadi münasibətləri yüksək səviyyədədir. Belə vəziyyətdə hesab edilir ki, Azərbaycan, Rusiya və Türkiyə regionda yeni iqtisadi güc mərkəzi yarada bilərlər. İndiki vaxtda bu hal Türkiyə və Rusiyanın xüsusi maraq dairəsindədir. Rusiya artıq ABŞ sanksiyaları altındadır. Türkiyəni də belə sanksiyalar gözləyir. ABŞ Dövlət katibinin müşaviri Con Sitilides bu xüsusda bildirir: "Donald Tramp Türkiyəni çox sərt cəzalandırmaq qərarında qətidir". O açıqlamasında ABŞ-Türkiyə münasibətlərinin gələcəyinin necə cərəyan edəcəyi haqda danışaraq bildirib ki, hazırkı vəziyyət onlardan asılı deyil: "Amerika və Türkiyə hazırda bir çox məsələlərdə bir-birindən xeyli uzaq yollardadır. İstər NATO - Türkiyə, istərsə də ABŞ və Türkiyənin öz hədəflərinə yanaşmasında ciddi fərqlər ortadadır. Xüsusilə Yaxın Şərq və Aralıq dənizinin şərq hissəsində Türkiyə tamam fərqli hədəfə doğru gedir. Açığı, indi Türkiyə prezidenti Ərdoğanın, yaxud onun hökumətinin nə edəcəyi haqda heç bir məlumatımız yoxdur".

Türkiyənin Rusiyadan alacağı S-400 raketlərinin tərəflər arasındakı gərginliyi pik həddə daşıdığını etiraf edən Sitilides deyib ki, Türkiyə o raketləri alarsa, o zaman ABŞ F-35 qırıcılarının satışını dayandıracaq: "Bildiyim budur ki, Türkiyənin hazırkı addımları ABŞ-ın da müdafiə qabiliyyətini ciddi təhdid edəcək durumdadır. Bəli, Tramp və onun komandası S-400-lərə görə F-35 hərbi təyyarələrinin Türkiyəyə satışını ləğv etmək məsələsində çox ciddidir. Arizonadakı hərbi bazada Türkiyəyə satılmış 3 ədəd F-35 var. Orada türk pilotlarına təlim keçilir. Ancaq o təyyarələr hələ Türkiyəyə təslim edilməyib. Ankara Rusiya ilə S-400-lərlə bağlı imzaladığı müqaviləni həyata keçirirsə, o zaman F-35-lərin təslim ediləcəyinə inanmıram.

Düzdür, bu zaman F-35-lərin dünyaya tədarük halqasında bəzi problemlər yaşanacaq. Çünki həmin təyyarələrin bəzi detalları Türkiyə ilə birgə istehsal olunur. Sözsüz ki, Türkiyə ilə birgə istehsal dayandırılsa, yeni ortaq tapılana qədər bəlli maliyyə itkiləri olacaq". Sitilides daha sonra bəyan edib ki, ABŞ, problemdən çıxış yolu kimi, Ankaraya qarşı qətiyyətli addımlar atacaq: "Prezident Tramp Türkiyəni iqtisadi baxımdan cəzalandırmaq məsələsində çox kəskin və qəti danışdı. Türkiyə bu cür sanksiyalara dözəcək gücdə, vəziyyətdə deyil. Hətta Türkiyə iqtisadiyyatını xilas etmək üçün Beynəlxalq Valyuta Fondundan kredit almaq məcburiyyətində qala bilər. Bəli, nəzarətdən çıxmış inflyasiya, plansız işsizlik və çox ciddi borc böhranı Türkiyənin qapısındadır". Lakin regionda Azərbaycanın da iştirakı ilə yeni güc mərkəzinin yaranması vəziyyəti tamam dəyişdirə bilər və bu həm də Qafqazın geosiyasi durumuna təsir edərək, Azərbaycanın mövqeyini daha da gücləndirə bilər. Belə vəziyyətdə Bakının işğalçı Ermənistana yeni təsir rıçaqları əldə etməsi də gözlənilən sayılır.

***Nahid SALAYEV***

---

**Məlum olduğu kimi, Ukraynada prezidentliyə namizəd, şoumen Vladimir Zelenski ölkənin hazırki rəhbəri Petro Poroşenko ilə debata çıxmaqdan imtina edib. Belə ki, Zelenski Kiyevin "Olimpiya" stadionunda təşkil olunan debatdan son anda boyun qaçırıb.**

# Ukraynada seçki prosesləri yeni məzmun alır, Poroşenko birbaşa dialoq məsələsində Zelenskini üstələdi...



*"Ukrayna xalqı artıq prosesləri yaxından izləyir və hesab edirəm ki, səsini daha təcrübəli siyasətçiyə verəcək"*

***Məhəmməd Əsədullazadə:*** *"Debatlar əsasən namizədlər arasında bir yarışdır və artıq Zelenski bu yarışda məğlub vəziyyətdədir"*

Şoumen Poroşenko tərəfindən ona qarşı təxribatın hazırlandığını iddia edərək, debatdan qaçmasını bununla əsaslandırıb.

Zelenskidən fərqli olaraq, Poroşenko yüzlərlə insanın qarşısına çıxıb və vətəndaşları maraqlandıran suallara cavablandırıb. Stadionda təkbaşına olan Poroşenko bu müddətdə jurnalistlərlə söhbətləşib. O, Zelenskini növbəti dəfə debata dəvət edib.

"Qorxmayın, debat elə də qorxulu deyil", - deyə Poroşenko Zelenskiyə ismarıc göndərib. Sonra istehza ilə Zelenskinin prezident Emmanuel Makronla görüşmək üçün Parisə səfərindən sonra dincəlməyə ehtiyacı olduğunu əlavə edib.

Jurnalistlərdən birinin Zelenskinin qələbə çaldığı təqdirdə onunla əməkdaşlıq edib-etməyəcəyi haqda sualının cavabında Poroşenko deyib ki, "əgər Allah göstərməsin, o seçilsə, bu, Ukrayna xalqının seçimi olacaq və mən bu seçimə hörmət edəcəm".

Poroşenko aprelin 21-də prezident seçkilərinin ikinci turunda Zelenski ilə mübarizə aparacaq. V.Zelenski bu ayın əvvəli seçkilərin birinci turunda böyük üstünlüklə irəli çıxıb. Rəy sorğuları onun final səsvermədə də üstünlük qazana biləcəyini proqnozlaşdırsa da, onun debatdan imtina etməsi müəyyən müzakirələrə səbəb olub.

Poroşenko seçkilərin qarşıdan gələn ikinci turundan əvvəl beynəlxalq dəstək qazanmaq məqsədilə aprelin 12-də Berlinə və Parisə səfər edib. Poroşenko Berlində Almaniya Kansleri Angela Merkellə görüşüb. Merkel Almaniya ilə Ukrayna arasında son illərdə "çox yaxın münasibətlərin" qurulmasını təqdir edib.

Zelenski Parisə səfər edərək, Prezident Emmanuel Makronla görüşüb. Bütün bu deyilənlərin fonunda, Zelenski Poroşenko ilə debatdan niyə imtina etdi? Nəzərə alsaq ki, ikinci tura çox az vaxt qalıb, onun bu addımı keçiriləcək seçkilərin nəticələrinə necə təsir göstərəcək?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə kontekstdən yanaşdı:** "Ukraynada keçirilən prezident seçkiləri ilk öncə Qərblə Rusiya arasında siyasi qarşıdurma yarışıdır. Rusiya çalışır ki, Poroşenkonun mövqeləri kifayət qədər zəifləsin və öz namizədini yenidən hakimiyyətə gətirsin. Bununla yenidən Ukraynada öz mövqelərini bərpa etsin. Hesab edirəm ki, Ukraynada keçirilən prezident seçkilərinin birinci turunda Zelenski digər namizədlərdən daha çox səs toplasa da, ikinci turda Poroşenkoya qalib gəlmək şansları əldən verir. Birinci turda populizm və vətəndaşların ona simpatiyasına görə səs alsa da, ikinci turda siyasi baxımdan daha ciddi platforma ortaya qoymalıdır. Yalnız o halda qalib gələ bilər. Ancaq müşahidələr göstərir ki, Zelenskinin timsalında bu yoxdur. Poroşenko isə kifayət qədər təcrübəyə və siyasi platformaya malikdir. Ona görə də debat siyasətçilər üçün əsas sınaq meydanıdır və burada siyasi bilik mühüm rol oynayır. Bundan əlavə, Qərbin dəstəyi də mühüm amildir. Ancaq Zelenskinin debata gəlməməsi onun ziyanına işlədi. Zelenskinin öz təklifinə rəğmən, debatdan çəkinməsi onun siyasi təcrübəsizliyindən və Poroşenkonun yanında daha da zəif duruma düşmək qorxusundan irəli gəlir. Yəni dolayısı ilə bundan çəkinir. Məhz bu hal çox mühüm amildir və Poroşenkonun nüfuz qazanmasına müsbət təsir edir. Qeyd edim ki, Ukraynada aprelin 21-də Poroşenkonun qalib gəlmək şansları artır. Zelenski isə özünü daha zəif bənd halına gətirdi.

Debatlar əsasən namizədlər arasında bir yarışdır və artıq Zelenski bu yarışda məğlub vəziyyətdədir. Ukrayna xalqı artıq prosesləri yaxından izləyir və hesab edirəm ki, səsini daha təcrübəli siyasətçiyə verəcək".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağda ayağını itirmiş erməni əsgər: "Silahınızı atın və Qarabağı tərk edin..."

**Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan və Ermənistanın XİN rəhbərləri Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan arasında görüşdən sonra Dağlıq Qarabağ münaqişəsi ilə bağlı proseslərin hansı istiqamətdə inkişaf edəcəyinə dair indi ən fərqli fikirlərə rast gəlmək mümkündür.**

Görüşdən sonra verilən və daha çox diplomatik üslubda qurulmuş açıqlamalar bağlı qapılar arxasında hansı nəticələrə gəlinməsi barədə dəqiq informasiya verməyi hələlik mümkünsüz edir. Rusiya Xarici İşlər Nazirliyi mətbuat xidmətinin və ATƏT-in Minsk Qrupu həmsədrlərinin görüşlə bağlı birgə bəyanatı da konkret nəticə çıxarmaq üçün yetərli sayılmır. Amma hesab edilir ki, görüşdən sonra İrəvan zəbt edilmiş ərazilərin tədricən azad edilməsinə start verməsə, məsələnin hərbi həlli artıq qaçılmaz olacaq.

Bəzi ekspertlər isə bildirir ki, yaranmış vəziyyətdə Ermənistanın hansısa çıxış yolu olmadığından, İrəvan işğal altındakı torpaqları tədricən azad etməyə başlaya bilər. Məsələn, politoloq Rüstəm Məmmədov vurğulayır ki, ilkin olaraq Qarabağın ətrafındakı 7 rayonun qaytarılması ilə bağlı razılaşma əldə olunması istisna deyil. Onun sözlərinə görə, Azərbaycanın açıq-aşkar müharibəyə hazır olduğunu bəyan etməsi Ermənistanı qorxudub: "Başa düşürlər ki, bunu çox uzatsalar, müharibə təhlükəsi Ermənistanın başının üstünü alacaq. Müharibə də olsa, Paşinyanın evi yıxılacaq. Ona görə də mütləq 7 rayonu qaytaracaqlar. Ancaq Dağlıq Qarabağ məsələsi hələ gündəmdə xeyli qalacaq. Çünki statusu müəyyən deyil. Qarabağın statusu ilə bağlı əlavə danışıqlar olacaq. Məntiqlə Qarabağın statusunun müəyyənləşdirilməsi uzaq illərin işidir".

Rüstəm Məmmədov qeyd edib ki, rəsmi Moskva başqa dövlətlərə imkan verməyib, bu prosesin nizamlanmasını öz üzərinə götürməyə çalışır: "Rusiya Ermənistanın addımlarından narazıdır. Hiss olunur ki, Rusiyanın Ermənistanı dəstəkləmək fikri yoxdur. Ona görə də Moskva İrəvanı sıxacaq. Azərbaycan cəmiyyəti də artıq müharibəyə hazırdır. Rusiya Ermənistanı qoruya bilməyəcək, nəticədə birmənalı şəkildə Ermənistan dağılacaq. Başa düşürlər ki, Azərbaycanın bu iddiası qarşısında heç nə edə bilməyəcəklər". Xalqların sülhə hazırlanması ideyasına gəlincə, Rüstəm Məmmədov qeyd edib ki, bunu Ermənistan məcburi irəli sürür: "Çünki başqa əlacı yoxdur, görürlər ki, Azərbaycan müharibə deyir, müharibə isə Ermənistan üçün ölüm deməkdir".

Rusiyalı ekspert Stanislav Tarasov da bildirir ki, Ermənistanın başqa çıxış yolu qalmayıb və Azərbaycanın istəklərinə boyun əyməyə məcburdur: "Moskvada baş tutan belə görüşlərin məqsədi də müharibənin baş verməməsinin söykəndiyi həssas balansın qorunmasından ibarətdir". Rusiyalı ekspert qeyd edir ki, Lavrov irəliləyişə nail ola bilərsə, o halda Moskva Yaxın Şərqdə baş verən mürəkkəb proseslərlə bağlı qarşılıqlı əməkdaşlıq və qarşılıqlı münasibətlər formatlarının daha geniş inteqrasiyası formatı çərçivəsində bu üçlükdə öz qarşılıqlı fəaliyyət taktikasını dəyişə bilər. Erməni ekspert Sarkis Karapetyan isə vurğulayır ki, Azərbaycan artıq nəticəsi olan danışıqlar istəyir və bu səbəbdən istəyinə çatmasa, savaşa mütləq şəkildə əl atacaq: "Danışıqlarda nəticə olmaması bizə yaxşı heç nə vəd etmir. Özünü kifayət qədər güclü hesab edən Azərbaycan nəticə əldə etməsə, savaşa baş vuracaq. İstənilən halda, erməni xalqını hazırlaşmağa və qəfil yaxalanmamağa çağırmaq istəyirəm... Nə qədər ki, vaxtımız var, qəflətən yaxalanmamaq üçün taxıl, qənd, duz, kibrit ehtiyatı görməyə çağırıram". Karapetyan bu fonda danışıqlarda nəticə olmasını vacib saydığını qeyd edib, bununla belə, həm də müharibənin yenidən başlaması təhlükəsini hiss etdiyini deyib: "Amerikadan və Rusiyadan bir erməni general məni məlumatlandırıb ki, yazda yollar quruyarkən azərbaycanlılar hücum edəcək. Təbii ki, həmin vaxta qədər danışıqlarda nəticə əldə olunsa, vəziyyət dəyişəcək. Amma nəticə olmasa, erməni xalqını hazırlaşmağa və qəfil yaxalanmamağa çağırmaq istəyirəm. Müharibəyə hazırlaşmağın ilk ən vacib məqamı evdə ehtiyat ərzağa malik olmaqdır". O hesab edir ki, ikinci təhlükə İrəvanda olan turistlərdir. Onun fikrincə, ən ciddi təhlükələrdən biri İrəvana dolmuş qaradərililərdir: "Bilinmir, Pakistan, Səudiyyə Ərəbistanı, ya haralıdırlar. Bu, İrəvanda sanki barıt çəlləyidir. Bir anlığa Qarabağda müharibə başladığını düşünün, bunlar burada diversiya törədə bilərlər".

Ümumiyyətlə, Ermənistanda yaxşı başa düşürlər ki, danışıqların dalana dirənməsi gərginliyi və hərbi əməliyyatların bərpası riskini artırır. Erməni siyasi şərhçi Aram Amatuni vurğulayır ki, İrəvan belə vəziyyətdə danışıqlar yolu ilə məsələnin həllinə cəhd etməlidir: "Məsələ hərbi sahədə həll edilərsə, o zaman sual yaranır ki, 25 il ərzində Ermənistan "Madrid prinsipləri" üzrə danışıqlara niyə gedirdi. Elə məlum "aprel müharibəsi" də danışıqların məntiqi üzrə baş verdi. Bundan sonra nələr olacaq? Bu sualın cavabı Ermənistanın dövlət kimi inkişafından asılıdır. Çünki rəqiblə rəqabət danışıqlar masasında yox, inkişafdadır. Bir dövlətin inkişafının 4 sütunu var: ordu, iqtisadiyyat, ictimai-siyasi sistem və mədəni sima. Rəqabət, yaxud rəqiblə mübarizə dövlət keyfiyyətlərinin effektivliyindən asılıdır. Rəqib bu 4 sütunda bizdən yüksəkdədir. Ermənistan nə edəcək, bu istiqamətdə rəqabətə davam gətirə biləcəkmi? Çətin".

Erməni ekspert son illər Azərbaycan ordusunun arsenalına müasir silahların daxil edilməsinin də burada nəzərə alınmasını vacib sayır. Bildirir ki, Ermənistan artıq münaqişənin həlli istiqamətində konstruktiv addımlar atmasa, regionda vəziyyət gərginləşə bilər. İndiki halda isə Ermənistanın hərbi, iqtisadi potensialı Azərbaycanla rəqabət aparmağa imkan vermir. Bunu nəzərə alan erməni veteran Artur Armenyanın müraciəti də qeyd edilənlər fonunda xüsusi maraq doğurur. O bildirir ki, Qarabağ məsələsində sistemli olaraq erməni gəncləri siyasətçilərin və generalların səsləndirdiyi möcüzəli yalanlarla yetişir. Erməni gəncliyi, beynəlxalq qanunlara baxmayaraq, Azərbaycana qarşı işğal siyasəti aparan hakimiyyətin ambisiyaları uğrunda öz qanını daha az axıtmaq istəyir: "Dağlıq Qarabağ heç vaxt bizim olmayıb və olmayacaq. Mən yalnız indi anladım ki, biz ermənilər azərbaycanlılara münasibətdə düzgün hərəkət etməmişik. Yaxşı bir qonşunu itirmişik. Mən deyə bilmərəm ki, azərbaycanlılar pisdir. Çünki onlar haqlıdır". Qarabağda xidmət keçən Armenyan erməni zabitlərinə və əsgərlərinə müraciət edib: "Ermənistanın bütün zabit və əsgərlərinə müraciət edirəm ki, silahınızı atın və Qarabağı tərk edin. Qoy siyasətçilər və ali baş komandan özləri gedib vuruşsunlar. Əziz analar, babalar, atalar, öz özladlarınızı Azərbaycana qarşı vuruşmağa göndərməyin. Mən bu müharibədə ayağımı itirmişəm. Və indi mən heç kimə lazım deyiləm. Çox təəssüf! İndi mən Fransadayam. Ermənistana da heç vaxt qayıtmayacağam".

Ekspertlər erməni təmsilçilər tərəfindən yuxarıda səslənən bu fikirlərin heç də təsadüfi xarakter daşımadığını bildirir. İlk növbədə o baxımdan ki, ermənilər Qarabağ məsələsində haqsız və zəif tərəf olduqlarını özləri də aydın görürlər. Bu reallıq Paşinyan iqtidarına da yaxşı bəllidir. Məhz bu səbəbdən hesab edilir ki, Azərbaycan və Ermənistanın XİN rəhbərlərinin Moskva görüşündə müəyyən razılıqların əldə edilməsi istisna deyil. Digər tərəfdən, burada nəzərə almaq lazımdır ki, Ermənistanın indiyə qədər əsas havadarı olan Rusiyaya arxalanaraq Qarabağ danışıqlarında yenidən qeyri-real, təxribatçı mövqe tutması artıq mümkün deyil. Çünki Moskva İrəvana əvvəlki münasibət sərgiləmir. Digər tərəfdən, ATƏT-in Minsk Qrupunun başqa həmsədr ölkəsi olan ABŞ Qarabağda yeni müharibə istəmir. Belə vəziyyətdə Vaşinqton artıq sülh danışıqlarının "donu"nun açılmasını istəyir. Dünya gücləri, elə işğalçı Ermənistan üçün burada vacib məqamlardan biri həm də ordumuzla bağlıdır.

Ekspertlərin qənaətincə, hazırda Azərbaycan ordusu öz silahlı qüvvələrinin texniki-təchizat göstəricisinə görə bir çox dünya ölkələri ilə müqayisədə daha əlverişli vəziyyətdədir. Ölkə rəhbərliyi bu məsələyə daima ən ciddi diqqət yetirir, ordu üçün yeni silahlar alır. Bu səbəbdən də Azərbaycan hərbçiləri döyüş hazırlığı və təchizat səviyyəsinə görə Ermənistandan çox irəlidədir. Azərbaycan ordusu bütövlükdə yeni nəsil hərbi texnika ilə təchiz edilib. Bu səbəbdən təkcə Ermənistanı yox, elə MDB-də də əksər ölkələri xeyli üstələyir. Azərbaycan ordusunun döyüş ruhu və potensialı, Ermənistan ordusundan üstünlüyü özünü məlum 4 aprel müharibəsində əyani şəkildə artıq özünü göstərib. Həmin üstünlük hesabına cəmi bir neçə günə işğal altındakı ərazilərimizin 2000 hektarı düşməndən geri alındı. Ardınca Naxçıvanda Günnüt kəndi və digər ərazilərin də azad edilməsi düşmənə gücümüzü bir daha aydın şəkildə göstərdi. Ermənistanın savaş yolu ilə belə yeni məğlubiyyətlərə uğraması isə Paşinyan iqtidarının sonunu daha tez gətirə bilər. Bu səbəbdən İrəvan, yuxarıda qeyd olunduğu kimi, əslində Azərbaycanla razılaşmağa məcburdur. Digər tərəfdən, erməni ictimaiyyəti Ermənistanın yeni hakimiyyəti və onun rəhbəri Nikol Paşinyanın inqilab öncəsi verdiyi iqtisadi və siyasi vədləri yerinə yetirməyi tələb edir. İndiki halda isə işğalçı ölkənin iqtisadi potensialı iflas ərəfəsindədir. Regiondakı bütün qlobal layihələrdən məhrum edilən, yalnız xaricdəki milyonçu ermənilərin yardımları hesabına dövlət büdcəsini alayarımçıq formalaşdıra bilən Ermənistan hakimiyyəti ac erməni millətinin ümidlərini doğrulda bilmir. Bu ümidlər yalnız işğala son qoyulduqdan sonra doğrula bilər. Elə bu səbəbdən də İrəvan üçün yeganə ümid Azərbaycanın mövqeyini qəbul etmək, zəbt edilmiş əraziləri azad etməkdir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Dünya bazarlarında neftin sürətlə artan qiyməti və bunun nə qədər davam edəcəyi yenə xüsusi diqqət mərkəzində yer almaqdadır. Yaranmış vəziyyəti şərh edən ekspertlərin böyük əksəriyyəti isə belə qənaətdədir ki, geosiyasi ziddiyyətlər üzündən neftin budəfəki qiymət artımı fantastik həddə çata bilər. Dünya bazarlarında neft qiymətlərinin artmasını şərh edən İranın neft naziri Bijən Namdar Zəngənə də bildirir ki, vəziyyət dəyişməsə, artım davam edəcək:**

# Qarşıdakı bir ayda neft 100 dollara qalxacaq




"Neftin qiymətlərinin hər gün yüksəlməsi dünya bazarlarının narahat olmasının göstəricisidir. Donald Tramp İrana təzyiqləri artırmaqla ABŞ-da benzinin qiymətlərinin aşağı səviyyədə qalması arasında seçim etməlidir".

Neft bazarının narahat bir dönəmdən keçdiyini və Birləşmiş Ştatların İrana təzyiqi artırması durumunda bu narahatlığın dərinləşəcəyini bildirən nazir vurğulayıb: "Hazırda Venesuelada problemlər var, Rusiyaya sanksiyalar tətbiq edilir, Liviyada ara qarışıb, Birləşmiş Ştatlarda neft hasilatı azalıb. Venesuelada davam edən gərginlik isə ABŞ üzərində təzyiqi artıracaq. Yaranan vəziyyətə görə demək olar ki, hasilatın az, tələbin çox olduğu narahat bir dövrdən keçirik". Real vəziyyətin təhlili isə göstərir ki, yaxın tezlikdə Liviyada vəziyyət düzəlməyəcək, İrana qarşı sanksiyalar daha da sərtləşəcək, Venesuelada problemlərin miqyası bir qədər əd artacaq. Bu şəraitdə neft bazarında kəsirin yaranması və artması gözlənir. Məhz bu vəziyyət də qiymətləri daha sürətlə yüksəldir.

Qeyd edək ki, Azərbaycanın dünya bazarına çıxararaq satdığı neftin qiyməti də bahalaşır. Belə ki, hazırda "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 74,13 dollar təşkil edir. Ümumiyyətlə, dünya birjalarında neftin qiymətində 2016-cı ildən bu vaxtadək ən böyük həftəlik artım qeydə alınır. Buna səbəblərdən biri də OPEC+ koalisiyasının neft istehsalını rekord səviyyədə azaltması, yuxarıda qeyd olunduğu kimi Liviya, İran və Venesuelada hasilatdakı geriləmələrdir. Nəticədə təkcə bu il "qara qızıl"ın qiyməti 40 faizdən çox artıb. Bu fonda təhlilçilər vurğulayır ki, neftin dünya bazar qiymətlərinin real temp səviyyəsi OPEC+ ölkələrinin hasilatı azaltmaq barədə qərarlarının kifayət qədər effektli işlədiyini bir daha sübut edir. Belə ki, 2016-cı ilin ikinci yarısında OPEC+ ölkələrinin hasilatın azaldılması ilə bağlı qərarından sonra neftin qiyməti sabitləşməyə başlayıb. Bundan sonra 2018-ci ilin əvvəlindən neft qiymətləri 60 dollar civarında sabitləşdi. Ötən ilin payızında isə çox qısa müddətdə 80 dollara kimi qalxdı, sonra yenidən endi. Ancaq ümumilikdə neftin qiyməti artıq iki ildən çoxdur ki, stabillik nümayiş etdirir. Yaranmış durumda ekspertlər vurğulayır ki, artıq əks mövqedən çıxış etməsinə rəğmən, ABŞ-ın dünya neft bazarına diqtəsi o qədər də güclü deyil. Reallıqda OPEC+ dünya neft bazarında ABŞ-ın təkbaşına hökmranlığının qarşısını almaq iqtidarında olduğunu göstərə bilib.

İqtisadçılar hesab edir ki, dünya üzrə hasil edilən neft ehtiyatlarının azalması və neftə olan tələbatın artması davam edərsə, qiymətlər bir az da yüksəliş nümayiş etdirə bilər. Təbii ki, buna Liviya, İran və Venesuela amili də təsir edir. Elə buna görə də qiymətlərin daha da yüksəlməsi qaçılmaz sayılır. Çünki son üç ölkədə yaşanan problemlərin yaxın perspektivdə həlli gözlənilmir. "The Wall Street Journal" nəşri isə yazır ki, qiymət artımına baxmayaraq, ABŞ İrandan neft idxal edən ölkələrə verdiyi möhləti uzatmaq niyyətində deyil. Hökumətdəki mənbələr, Liviyada böhranın geniş vüsət almasına rəğmən, Vaşinqtonun geri çəkilmək niyyətində olmadığını vurğulayıb. Onlar hesab edirlər ki, Liviyadakı münaqişə səbəbindən neft hasilatının bərpası yenə təhlükədə olduğundan, ABŞ-ın İran və Venesuela neftinin dünya bazarına çıxarılmasını tamamilə əngəlləmək planını sual altına qoyub. Lakin buna rəğmən, ABŞ İrandan neft idxal edən ölkələrə verdiyi möhləti uzatmaq niyyətində deyil. Xatırladaq ki, ABŞ 7 ölkəni İran neftinə qarşı tətbiq etdiyi sanksiyalardan müvəqqəti azad edib. İndi həmin ölkənin İrandan neft alışını dayandırması "qara qızıl"ın qiymətini daha sürətli şəkildə yüksəldə bilər. Hesab edilir ki, vəziyyət dəyişməsə, artıq qarşıdakı 1 ayda qiymətlər 100 dollarlıq həddə çata bilər. "Fitch" Beynəlxalq Reytinq Agentliyinin təbii ehtiyatlar və əmtəə üzrə direktoru Dimitri Marinçenko da qiymət artımının qaçılmaz olduğunu bildirir: "Bir sıra amillər var ki, onlar neft qiymətlərində müsbət tendensiyalara əsas verir. Bunlar OPEC-in qərarları, İranda və Venesuelada neft hasilatının həcminin azalması və ABŞ əleyhinə baş verən proseslərdir. Biz yaxın dövrdə qiymətin yuxarı həddinin 70-75 dollar olacağını düşünürük. Amma artım daha yüksək də ola bilər.

Neft bundan baha ola bilməz. Qiymətlər kəskin artarsa, bu, ABŞ-ın Səudiyyə Ərəbistanı da daxil olmaqla OPEC ölkələrinə təzyiq göstərməsinə gətirib çıxara bilər. Çünki yüksək neft qiymətləri ABŞ iqtisadiyyatı üçün açıq təhdiddir".

***Tahir TAĞIYEV***

**Məlum olduğu kimi, uzun müddətdir Azərbaycanda manat-dollar məzənnəsi sabitdir. Baş verən devalvasiyalardan sonra hökumət inzibati yollarla, Dövlət Neft Fondundan ayırmaların hesabına məzənnəni sabit saxlayır. Bu da vətəndaşların, o cümlədən, biznes strukturlarının xeyrinədir və ölkədə makroiqtisadi sabitliyin təmin olunmasına müsbət təsir göstərir.**

# Manatın uzun müddət sabit qalmasının təhlükəli tərəflərinin müzakirəsi başlayıb...

*Vüqar Bayramov: "Manatın real məzənnəsinə maliyyə bazarı və kommersiya bankları hazır olmalıdır"*



*"... gələcəkdə iqtisadiyyatı bir sıra risqlərdən qorumaq..."*

Ancaq maraqlıdır ki, bu arada bəzi beynəlxalq reytinq agentlikləri buna tənqidi prizmadan yanaşırlar. Məzənnə rejiminin sabit qalmasını təhlükəli hal hesab edirlər. Belə ki, beynəlxalq kredit reytinqi agentliyi olan "Moody's" sabit məzənnə rejiminin təhlükəli ola biləcəyini bəyan edib və bununla bağlı Azərbaycan hökumətinə, habelə Mərkəzi Bankına xəbərdarlıq edib.

"Moody's"ə görə, sabit məzənnə rejimində şirkətlər və əhali arxayınlaşır və növbəti iqtisadi şokda böyük zərərə düşürlər.

Agentlik Azərbaycanın reytinqini təsdiq edərək açıqlama yayıb. Açıqlamada bildirilir ki, manat 2015-ci ilin dekabr ayında "üzməyə" başlayıb, amma 2017-ci ilin əvvəlindən ABŞ dollarına qarşı çox sabit olub. "Moody's"ın fikrincə, məzənnədə qeyri-sabitliyin olmaması sual doğurur. Çünki "üzən məzənnə" rejimi barədə Mərkəzi Bankın öhdəliyi var idi.

"Moody's" xəbərdarlıq edir ki, dollar-manat məzənnəsinin sabit qalması müəssisələr və istehlakçıların arxayınçılığı ilə nəticələnə bilər. Məzənnənin sabitliyi uzunmüddətli səylərə ziddir və valyuta məzənnəsi iqtisadiyyat üçün "şok amartizatoru" olmalıdır. Yəni şokun təsirini azaltmalıdır. Artıq 2 ilə yaxındır dollar 1.70 AZN məzənnəsində sabitləşib.

Maraqlıdır, "Moody's"ın Azərbaycanda sabit məzənnə rejiminin təhlükəli ola biləcəyi barədə səsləndirdiyi proqnozlar nə dərəcədə əsaslıdır? Ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, Mərkəzi Bank mərhələli şəkildə, praktiki olaraq, "üzən məzənnə" rejiminə keçməlidir:** "Praktiki olaraq, Mərkəzi Bank "üzən məzənnə" rejiminə keçməklə xarici şokların təsirlərini müəyyən qədər sığortalaya bilər. Çünki buna keçid, nəticə etibarilə, manatın bazar dəyərinin müəyyənləşdirilməsinə imkan yarada bilər. Bu gün ciddi problemlərdən biri ondan ibarətdir ki, manatın real bazar dəyərinin formalaşmasına ehtiyac var. Xüsusən də biznes üçün manatın real dəyərinin formalaşması çox vacibdir. Ona görə ki, belə olmadıqda bəzən bu, iqtisadiyyatda müəyyən mənfi fəsadlara gətirib çıxarır. Bu baxımdan hesab edirəm ki, "üzən məzənnə" rejimi milli valyutanın real bazar məzənnəsinin müəyyənləşdirilməsi üçün vacibdir. Ona görə də düşünürəm ki, buna keçid ölkənin maliyyə sektoru üçün vacibdir. Fikrimcə, MB mərhələli şəkildə buna getməlidir. Mərhələli şəkildə çalışmalıdır ki, "üzən məzənnə" rejimini bərpa etsin. Manatın real dəyərinin müəyyənləşməsi həm də gələcəkdə MB-nin intervensiya xərclərinin azalmasına gətirib çıxaracaq. Nəzərə almaq lazımdır ki, sabit məzənnə rejiminin təmin edilməsi üçün hər il müəyyən vəsait xərclənir.

Bu da, nəticə etibarilə, MB-nin özü üçün faydalı deyil. Bütün bunlarla yanaşı, manatın real məzənnəsinin formalaşmasına ehtiyac var. Əvvəl-axır buna getməliyik. Onu da qeyd edim ki, manatın real məzənnəsinə maliyyə bazarı və kommersiya bankları hazır olmalıdır. O baxımdan, MB mərhələli şəkildə bunu formalaşdırsa, bu, iqtisadiyyat üçün daha uyğun və əlverişli olar. Belə olsa, o zaman gələcəkdə iqtisadiyyatı bir sıra risqlərdən qorumaq mümkün olacaq".

***Vidadi ORDAHALLI***

# Masallıda Vətən Müharibəsi abidəsinin supermarket yerinə qurban verilməsi məsələsinə kənd camaatı da qarışdı

**Masallı rayonunun Qızılavar kəndində, Masallı-Boradigah yolunun sol tərəfində Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə ucaldılan möhtəşəm abidənin dağıdılması ilə bağlı məlumat vermişdik. Bu hadisə ilə bağlı apardığımız jurnalist araşdırması zamanı Masallı Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. İcra başçısının müavini Nəsir Muxtarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onlarda belə bir məlumat yoxdur:**



"Bu cür abidələr Mədəniyyət Nazirliyinin balansında olur və onlara heç kim toxuna bilməz... Mən icra nümayəndəsi və bələdiyyə ilə məsələni dəqiqləşdirdim. Həmin abidəni əvəz edən yenisini tikəndən sonra köhnəni söküblər. Hətta yeni abidənin açılışı da olub. Bu, kənd əhalisinin tələbi ilə baş tutub. Yeni abidənin açılışı ilə bağlı fotolar da var".

Çox maraqlıdır ki, ucaldıldığı iddia edilən yeni abidə köhnənin yerində tikilməyib. Bizə söz verilsə də, sözügedən yeni abidə barədə heç bir foto təqdim edilmədi. Ancaq adlarının çəkilməsini istəməyən kənd sakinləri bizimlə söhbətlərində bildirdilər ki, həmin kənddən çoxlu sayda sakin Böyük Vətən Müharibəsində həlak olub. Abidəyə göstərilən bu hörmətsizlik onları dərindən narahat edib. Kənd sakinlərinin sözlərinə görə, mövzunun bizim tərəfimizdən ictimailəşdirilməsi rayondakı bəzi qurumları ciddi narahat etməyə başlayıb. Onlar özlərinə yaxın olan kənd sakinlərindən "vətəndaş məktubları" toplayıb əlaqədar qurumlara göndərmək istəyirlər ki, guya bu "xahiş" onlara kənd sakinlərindən gəlib. Ancaq kənd əhalisinin böyük əksəriyyəti edilən hərəkətlə razılaşmayıb, Rayon Prokurorluğuna şikayət ediblər. Hətta deyilənə görə, Masallı Rayon Prokurorluğunda bununla bağlı araşdırma aparılır. Ən maraqlısı isə abidənin sökülməsində bilavasitə iştirak edən şəxsin kimliyi ilə bağlıdır. Kənd sakinlərinin dediyinə görə, həmin prosesə 71 saylı Masallı Kənd Seçki Dairəsinin sədri İlkin Əzizov rəhbərlik edib. Əslən həmin kənddən olan İlkin müəllimin vəzifəsi ilə uzlaşmayan bir fəaliyyətə qol qoyması bizdə dərin təəccüb yaratdı. Təəssüflər olsun ki, onun özü ilə əlaqə saxlayıb məsələyə aydınlıq gətirmək cəhdlərimiz alınmadı.

Masallı Rayon Prokurorluğuna etdiyimiz zəngə cavab verən xanım isə bildirdi ki, prokuror yerində olmadığı üçün, bu barədə heç bir məlumat verə bilməyəcək: "Nömrənizi saxlayın, gələndə deyərəm, sizinlə əlaqə saxlayarlar". Təəssüf ki, sonra bizimlə əlaqə saxlayan olmadı və bizim sonrakı zənglərimizə Rayon Prokurorluğundan cavab verilmədi.



İcra başçısının müavininin həmin abidənin Mədəniyyət Nazirliyinin balansında olduğuna dair səsləndirdiyi fikir bizi sözügedən qurumla əlaqə saxlamağa vadar etdi. Mədəniyyət Nazirliyindən bizə dedilər ki, bu işlərlə qurum yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti məşğul olur. Həmin xidmətin ictimaiyyətlə əlaqələrin tənzimlənməsinə məsul olan əməkdaşı Fariz Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu mövzu ona tanışdır: "Sizin ictimailəşdirmənizdən əvvəl vətəndaşlar müxtəlif qurumlara, həmçinin, bizə şikayət ediblər. Məndə olan məlumata görə, hazırda bu iş Masallı Rayon Prokurorluğunda araşdırılır. Mən şəxsən bu məsələ ilə maraqlandım. Nəzərinizə çatdırım ki, Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə tarixi abidələrin tam siyahısı tərtib edilib. Həmin siyahıya 6308 abidənin adı düşüb. Sizin barəsində bəhs etdiyiniz abidə həmin siyahıya düşməyib. Bu səbəbdən də onun mühafizəsi ilə biz yox, müvafiq icra hakimiyyəti məşğul olur. Bu heç də ona əsas vermir ki, hansısa abidə sökülsün. Yəqin ki, araşdırıldıqdan sonra bu məsələyə lazımi qiymət veriləcək".

Qeyd edək ki, Masalıda baş verən bu hadisə siyasi partiyaların da diqqətindən yayınmayıb. Hətta bununla bağlı etiraz bəyanatı verən siyasi qurumlar da olub. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bununla bağlı yaydığı bəyanatda deyilir: "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Masallı rayonunda İkinci Dünya Müharibəsində sovet xalqının faşizm üzərində qələbəsini tərənnüm edən abidə kompleksinin sökülməsindən dərin narahatlıq hissi keçirərək bu cür vandalizm aktını kəskin pisləyir və belə bir halın heç bir demokratik prinsiplərə və normativhüquqi aktlara uyğun gəlmədiyini bəyan edir.

Faşizm üzərində qələbənin əldə olunmasında 600 mindən artıq Azərbaycan vədəndaşı döyüş meydanlarında öz canlarını qurban verərək şəhid olmuşlar. Masallı rayonunda onların xatirəsinə ucaldılmış abidə kompleksinin sökülərək yerində hər hansı bir ticarət obyektinin inşa olunmasına cəhd edilməsi , bütövlükdə, İkinci Cahan Müharibəsində irqindən, dini və milli mənsubiyyətindən asılı olmayaraq, faşizmlə mübarizədə canlarını fəda etmiş bütün insanların ruhlarına hörmətsizlikdir.

Azərbaycan Kommunist Partiyası respublika ictimaiyyətini bu cür hallara qarşı barışmaz olmağa, birgə mövqe göstərməyə çağırır və Azərbaycan Respublikasının müvafiq orqanlarına müraciət edərək, törədilmiş vandalizm aktının icraçılarının Azərbaycan dövlətinin qanunvericiliyinə uyğun olaraq, cinayət məsuliyyətinə cəlb edilmələrini və onların ciddi cəzalandırılmalarını tələb edir".

Ümid edirik ki, Azərbaycan tarixinin bir salnaməsini özündə ehtiva edən həmin abidə tezliklə yerinə bərpa olunacaq və bu əməli törədənlər layiqli cəzalarını alacaqlar.

***Məhəmmədəli QƏRİBLİ***

Bakının müxtəlif yerlərində sıx-sıx küçə reklamlarına rast gəlirik. Ayrı-ayrı şirkətlərin istehsal etdiyi məhsullardan tutmuş, sosial çarxlara, eləcə də müğənnilərin şəkillərinin, görüntülərinin yer aldığı reklam lövhələrinə qədər Bakı küçələrində qarşılaşırıq. Bir-iki kiçik istisnanı nəzərə almasaq, demək olar ki, milli qəhrəmanlarımızın, torpaqlarımızın bütövlüyü uğrunda şücaət göstərən insanların şəkilləri əks olunan görmürük.

# Böyük reklam lövhələrində milli qəhrəmanlarımızın portretləri...



Halbuki, onların şəkillərinə, qəhrəmanlıqlarını göstərən örnəklərə daha tez-tez rast gəlməliyik.

Sovet dövründə plakatçı rəssamlar dövrün tələblərinə uyğun təşviqat materialları hazırlayar və həmin nümunələr şəhərin müxtəlif yerlərinə vurulardı. Heç şübhəsiz ki, həmin dövrdə qəhrəmanlığı tərənnüm edən lövhələr həddindən artıq çox idi. Çoxları hələ də xatırlayar, küçələrdə, məktəblərdə "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" plakatını. Bu şüarlar gənc nəslin vətənpərvərlik hisslərinin formalaşmasında müstəsna rol oynayırdı. Hazırda şəhərimizdə milli qəhrəmanların, tarixi qəhrəmanlarımızın fotoları əks olunan təşviqat lövhələri, demək olar ki, gözə dəymir. Müharibə şəraitində yaşadığımızı və torpaqlarımızın 20 faizinin yağı tapdağında olduğunu nəzərə alsaq, belə təşviqat lövhələrinin Azərbaycanın hər yerində olmasına ciddi ehtiyac var.

**Azərbaycan Reklamçılar İttifaqının idarə heyətinin üzvü, rəssam-dizayner, reklamçı rəssam, reklam üzrə ekspert Oqtay Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Azərbaycanın hər yerində milli qəhrəmanların, igid Azərbaycan əsgərlərinin, aprel cəngavərlərinin fotolarından ibarət təşviqat lövhələri yer almalıdır.** O hesab edir ki, hazırda buna çox böyük zərurət var. "Sovet dövründə reklamların əsasını siyasi reklamlar təşkil edirdi. Reklam yayımının bir neçə növü var. Bundan əlavə, sosial reklamlar da var ki, o da reklamın bir qoludur. Milli qəhrəmanların fotolarından ibarət təşviqat lövhələrinin hazırlanması sosial reklama aiddir. Sovet dövründə sosial reklamlara o qədər geniş yer verilmirdi. Deməzdim ki, hazırda vətənpərvərlik reklamları yoxdur, bu reklamlar az da olsa var. Bəzən yol kənarlarında bu kimi təşviqat lövhələrinə rast gəlinir. Bunlara da Bakı Şəhəri Reklam və Tərtibat İdarəsi nəzarət edir. Bu gün Azərbaycan Dövlət Reklam Agentliyi var, yeni yaradılmış qurumdur, bu işlər həmin qurumun da diqqətindədir. Qəhrəmanlıq təbliğ edən lövhələrin yayıldığı yerlərdən biri əsasən Bakı Metropoliteninin ərazisidir. Stansiyaların içində, çıxışında yer alır. Ancaq qəhrəmanlıq mövzusunda olan təşviqat lövhələrinin sayı qənaətbəxş deyil. Reklam üzrə ekspert kimi bu məni qane etmir. Müharibə vəziyyətində yaşayan ölkədə milli qəhrəmanlara, qəhrəmanlığa, vətənpərvərliyə dair təbliğat lövhələri daha çox olmalıdır. Bunun sayının çox olması maarifçilik baxımından çox əhəmiyyətli olardı".

***Oqtay Əliyev:** "Müharibə vəziyyətində yaşayan ölkədə milli qəhrəmanlara, qəhrəmanlığa, vətənpərvərliyə dair təşviqat lövhələri daha çox olmaldır"*

***Tərlan Eyvazov:** "Bu gün təəssüf ki, şəhərimizdə milli qəhrəmanların, torpaq uğrunda həlak olan insanların şəkillərinin əks olunduğu lövhələri görə bilmirik"*

**Hərbi ekspert Tərlan Eyvazov bizimlə söhbətində bildirdi ki, müharibə vəziyyətdə olan bir ölkədə qəhrəmanlıq, vətənpərvərlik təbliğ edən lövhələrin olması olduqca vacibdir.** T.Eyvazovun sözlərinə görə, bu gün aidiyyəti qurumlar bu işlə məşğul olmalıdırlar. "Əlbəttə, Bakı küçələrində, eləcə də respublikamızın digər yerlərində qəhrəmanlığı təbliğ edən lövhələr, demək olar ki, yoxdur. Halbuki, müharibə şəraitində yaşadığımız bir dövrdə bu olduqca vacibdir. Bu gün təəssüf ki, şəhərimizdə milli qəhrəmanların, torpaq uğrunda həlak olan insanların şəkillərinin əks olunduğu lövhələri görə bilmirik. Biz bununla bağlı müraciət edəndə də deyirlər ki, beynəlxalq təşkilatlar müharibə təbliğ edən lövhələri bəyənmirlər. Biz müharibə təbliğ etmirik, öz qəhrəmanlarımızı tanıtmaq istəyirik. Ümumiyyətlə, şəhərimizdə reklam sahəsində, bir növ, qarışıqlıqdır. Demək olar ki, reklamlar bir-birinə qarışıb. Hazırda çox hansı şirkətlər reklam işi ilə məşğul olan qurumlara vəsait ödəyirsə, həmin təşkilatların da reklamları şəhərin müxtəlif yerlərinə vurulur. Çox arzu edərdim ki, Azərbaycanın hər yerində qəhrəmanlarımızın fotolarının əks olunduğu lövhələr olsun. İran-İraq müharibəsindən 30 ildən çox vaxt keçib, ancaq İranın bütün kəndlərində, şəhərlərində bu müharibə zamanı həlak olan insanların fotolarından ibarət lövhələr var. Onlar vaxtaşırı olaraq bu lövhələrdəki şəkilləri yeniləyirlər. Bizdə isə təəssüf ki, hələ də dünyada hər şeydən əziz olan canından keçən insanlar bu şəkildə tanıdılmır" - deyə T.Eyvazov qeyd etdi.

*İradə SARIYEVA*

# "Qafqaz" taekvondo klubunun aprel şəhidlərinin xatirəsinə həsr etdiyi yoldaşlıq görüşündə "Qala" klubunun 25 idmançısı medal qazanıb

## *Bu dəfə klub öz aktivinə 9 qızıl medal yazdı*




**Azərbaycan taekvondoçuları aprel şəhidlərinin xatirəsini anıblar. Belə ki, Azərbaycan Taekvondo Federasiyasında "Qafqaz" taekvondo klubunun təşkilatçılığı ilə yoldaşlıq görüşü keçirilib.**

Aprel şəhidlərinin xatirəsinə həsr olunan yarışda dörd klubdan 120 idmançı qüvvəsini sınayıb. "Qafqaz" taekvondo klubu, "Zenit" taekvondo klubu, "Qala" taekvondo klubu və Masallı taekvondo klubunun da qatıldığı yarışın qalibləri təşkilatçı tərəfindən diplom və medalla təltif olunublar.

Sözügedən yoldaşlıq görüşündə "Qala" taekvondo klubunun idmançıları böyük uğurlar qazanıblar.

"Qala" taekvondo klubunun rəhbəri, respublikanın əməkdar məşqçisi, 4-cü dan qara kəmər Ramil Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, həmişə olduğu kimi, bu dəfə də yetirmələri fərqlənə biliblər.

O qeyd etdi ki, Gülnur Musazadə, Əsgər Həsən, İlkin Bayramov, Mirnadir Cabbarov, Fatma İsmayılova, Məryəm Namazlı, Eldar Quliyev, Abbas Qurbanlı, Məhəmməd Əliyev I, Elmin Dəmirli, Mircəfər Cabbarov, Leyla Abdullayeva, Leyla Əliyeva, Rəşad Hətəmov, Aydan Xəlilli, Aliyə Rəşidova, Azər Nəcəfov, Şamil Kazımlı II, Müslüm Həsənov, Gülnur Babalı, Yusif Həmidov, Nurlana Nusalova, Aylin Həsənli, Fərid Həsənov III yerə layiq görülüblər.

Qeyd edək ki, idmançıların məşqçiləri əməkdar məşqçi, 4-cü dan qara kəmər Ramil Həsənov və idman ustası Fatma Əliyevadır.

*İradə SARIYEVA*

# Xətai polisləri "Pablo Eskobar" ləqəbli narkobaronun şəbəkə üzvlərini də ələ keçirdi

**Xətai Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdiyi uğurlu əməliyyat-axtarış tədbiri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəbəkənin üzvləri aşkar olunaraq məsuliyyətə cəlb edilib.**

Belə ki, daxil olan məlumat əsasında keçirilən əməliyyat zamanı paytaxt sakini Kənan Cavadov rayon ərazisində bir neçə mənzildən məişət, elektronika. qızıl-zinət əşyaları və pul oğurlamaqda şübhəli bilindiyi üçün polislər tərəfindən saxlanılıb. O, ifadəsində oğurladığı əşyaları Xətai rayonu ərazisində yaşayan Elxan adlı şəxsə verərək əvəzində şəxsi istifadə üçün ondan narkotik vasitələr aldığını bildirib. İdarə əməkdaşları tərəfindən davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə K.Cavadova narkotik vasitələri satan paytaxt sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Elxan Məmmədov saxlanılıb. Onun yaşadığı evə baxış zamanı 1 kiloqram 510 qram narkotik vasitə olan heroin, 6 kiloqram 50 qram qurudulmuş marixuana, 1,590 qram dövriyyəsi qadağan edilən psixotrop maddə - metamfetamin, həmçinin K.Cavadovun müxtəlif mənzillərdən oğurlayaq ona verdiyi əşyalar aşkar edilərək götürülüb.

E.Məmmədovun yaşadığı evdə, həmçinin, narkotik vasitələrin qəbulu üçün ayrılmış xüsusi otaq da müəyyən edilib. Həmin otaqda o, narkotik vasitələri satdığı şəxslərə elə orada narkotikləri qəbul etmək üçün şərait yaradıb. E.Məmmədov saxlanan zaman onun evində narkotik vasitə qəbul edən daha 4 nəfər - paytaxt sakinləri Elşad Seyidov, Vaqif Məmmədov, Samir Qurbanov və Yalçın Hüseynov da tutulub. Onların üzərinə baxış zamanı şəxsi istifadələri üçün E.Məmmədovdan aldıqları heroin və metamfetamin aşkar edilərək götürülüb.

Polis əməkdaşları E.Məmmədovdan aşkar edilən narkotik vasitələrinin mənbəyinin müəyyən edilməsi istiqamətində əməliyyat tədbirlərini davam etdirərək, ona bu maddələri satan paytaxt sakini Məhəmməd Məmmədzadəni də saxlayıblar. M.Məmmədzadənin Xətai rayonunda yaşadığı evə baxış zamanı 504 qram heroin və 227,454 qram metamfetamin aşkar edilib. İstintaq zamanı müəyyən edilib ki, E.Məmmədovla M.Məmmədzadəni Salyan rayon sakini Vadim Kazımov tanış edib. Daha sonra M.Məmmədzadə narkotik vasitələri V.Kazımov vasitəsilə E.Məmmədova verərək satışını təşkil edib. Əməliyyat zamanı V.Kazımov da müəyyən edilərək saxlanılıb.

Qeyd edək ki, narkotik vasitələrin satışını təşkil edən M.Məmmədzadə özünə ötən əsrin 80-ci illərində dünyanın ən təhlükəli narkobaronlarından biri olmuş Pablo Eskobarı nümunə götürərək, hətta sinəsinə onun adını döymə ilə yazdırıb. Faktla bağlı Xətai RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir.

**Azərbaycanın təbii sərvətləri, müalicəvi Naftalan nefti nəinki regionda, hətta bütün dünyada populyardır. Uzun illərdir Naftalan neftinin sorağına dünyanın bir çox ölkəsindən xəstələr gəlir və burada sağlamlıqlarına qovuşurlar.**

# Bakı apteklərində "Naftalan" məlhəmi problemi, "Bio oyl" müəmması...



***Səfayə Əhmədova:** "O şirkəti Səhiyyə Nazirliyi bağlamayıb"*

***Esmira Əskərova:** "Həmin şirkət haqqında sizə hər hansı bir məlumat verə bilmərəm, çünki..."*

## *Dərman istehsal edən şirkətlər də təmizlənmiş Naftalan neftini "gördüm" demir*

Bu gün təmizlənmiş Naftalan neftinin uzaq Çinə qədər gedib çıxdığı və burada müalicə üçün istifadə edildiyi haqqında informasiyalar var. Son dövrlərə qədər yerli aptektərdə sıxsıx rast gəlinən təmizlənmiş Naftalan neftinə və ya ağ rəngli məlhəmə bu gün rast gəlinmir. Təmizlənmiş Naftalan neftinə bəzi apteklərdə təsadüfən rast gəlinsə də, 5-20 qram həcmində olan məhsul müxtəlif qiymətlərə satılır. Hazırda defisit olan təmizlənmiş Naftalan neftini tapsaq, 5 manat 20 qəpiyə, 6 manat 50 qəpiyə ala bilərik. Bu gün apteklərdə təmizlənməmiş Naftalan nefti satılır, ancaq təmizlənmiş neft isə satılmır. Dəri xəstəliklərinin, sümük, oynaq ağrılarının müalicəsində xüsusi əhəmiyyət kəsb edən təmizlənmiş Naftalan neftinin hazırla istehsal edilmədiyi bildirilir. Apteklərdən deyirlər ki, təmizlənmiş Naftalan neftinin istehsalı ilə Azərbaycanda məşğul olan "Bio oyl" şirkəti fəaliyyətini dayandırdığı üçün, hazırda bu məhsul istehsal olunmur, apteklərdə olan məhsul isə köhnədən qalandır.

Bu gün Azərbaycanda təmizlənmiş Naftalan nefti niyə istehsal olunmur?

Əlaqə saxladığımız dərman şirkətlərindən bildirdilər ki, "Bio oyl" şirkəti fəaliyyətdə olduğu dövrdə əməkdaşlıq nəticəsində həmin məhsulu ala bilirdilər, bu gün isə o məhsulu tapmaq çətindir.

"Avromed" şirkətindən bildirdilər ki, hazırda sözügedən məhsulla bağlı onlara tez-tez müraciət edilir, lakin bütün müştərilərə "biz artıq o məhsulu almırıq, yoxdur" cavabını verirlər. Şirkət əməkdaşının sözlərinə görə, Naftalan yağları var, ancaq onlara da müştərilər elə də maraq göstərmirlər.

"Bioloji Təbabət" şirkətindən isə bildirdilər ki, onlarda yalnız təmizlənməmiş Naftalan nefti var və xəstələrə həmin məhsul tətbiq edilir.

"Alfamed" və "Aysimed" şirkətlərindən də "hazırda bizdə təmizlənmiş Naftalan nefti yoxdur. Vaxtilə var idi, indi isə gəlmir" cavabını verdilər.

## *Şirkətlərdən bildirdilər ki, vaxtilə "Bio oyl" tərəfindən istehsal edilən bu məhsula tələbat olsa da, xeyli vaxtdır yoxdur*

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova isə "Bakı-Xəbər"ə bildirdi ki, "Bio oyl" şirkətinin hansı səbəbdən bağlanması haqqında məlumatsızdır.** "O şirkəti Səhiyyə Nazirliyi bağlamayıb. Bu məsələ ilə bağlı siz Analitik Ekspertiza Mərkəzi ilə əlaqə saxlayın. Onlar bu məsələni araşdırıb sizə məlumat versin".

**Səhiyyə Nazirliyi yanında Analitik Ekspertiza Mərkəzinin mətbuat xidmətinin rəhbəri Esmira Əskərova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ümumiyyətlə, onlarda bu şirkətlə bağlı hər hansı bir informasiya yoxdur.** "Mən istehsalla bağlı sizə heç bir söz deyə bilmərəm. Həmin şirkət haqqında da sizə hər hansı bir məlumat verə bilmərəm, çünki informasiyam yoxdur. Ancaq bu məsələni araşdıracağam, hər hansı bir məlumat əldə etsəm, sizə məlumat verərəm. Biz istehsal məsələsini araşdırmırıq. Bizim sahəyə qeydiyyat, idxal, laboratoriya keyfiyyətinin yoxlanması daxildir. Biz dərman istehsal edən şirkətlərin fəaliyyətinə nəzarət etmirik" - deyə o bildirdi.

*İradə SARIYEVA*

**Azərbaycanda ayrıca rusdilli məktəblər və orta ümumtəhsil məktəblərində rus bölmələri fəaliyyət göstərir. Bu da onu göstərir ki, başqa keçmiş ittifaq respublikalarından bir çoxundan fərqli olaraq, ölkəmizdə rus dilinə və onun tədrisinə münasibət yüksək səviyyədədir.**

# Rusiyada Azərbaycandilli məktəblər...




*Komitə sözçüsü başqa ölkələrdə də Azərbaycandilli məktəblərin mövcud olduğunu dedi*

## ***Vəsilə Vahidqızı:** "Rusiya Federasiyasının 53 regionunda Azərbaycan dili, tarixi, mədəniyyətini tədris edən həftəsonu məktəbləri fəaliyyət göstərir"*

Hətta bunu dəfələrlə Rusiya rəsmiləri də qeyd ediblər. Bu günlərdə ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko da Azərbaycanda rusdilli məktəblərin olmasını müsbət göstərici kimi vurğulayıb.

Azərbaycanın paytaxtı da daxil olmaqla, respublikamızın hər yerində rus dili tədris edilir, öyrədilir.

Bəs Rusiyada necə, Azərbaycandilli məktəblər varmı, bu ölkədə Azərbaycan dilinin, ədəbiyyatının, tarixinin tədrisinə əhəmiyyət verilirmi?

Yeri gəlmişkən bildirək ki, Rusiya Federasiyasının Dağıstan Respublikasının azərbaycanlıların tarixən kompakt yaşadığı Dərbənd şəhərində Azərbaycandilli məktəb var və fəaliyyət göstərir.

**Diasporla İş üzrə Dövlət Xidmətinin mətbuat xidmətinin rəhbəri Vəsilə Vahidqızı "Bakı-Xəbər"ə bildirdi ki, nəinki Rusiyada, hətta dünyanın digər ölkələrində Azərbaycandilli məktəblərin açılması, fəaliyyətinə komitə tərəfindən böyük maraq göstərilir.** Rusiya Federasiyasına gəldikdə isə, o qeyd etdi ki, bu ölkədə fəaliyyət göstərən bir çox Azərbaycan diaspor təşkilatının nəzdində həftəsonu məktəbləri var. Onun sözlərinə görə, Moskva, Sankt-Peterburq, Kursk, Krasnoyarsk, Vladivostok, Voronej, Tambov, Tula, Kalininqrad, Çuvaşiya, Perm, Tomsk, Novosibirsk, Çita, Orenburq, Stavropol, İvanovo, Tümen, Arxangelsk, Çelyabinsk, Amur, Murmanskda Azərbaycan dili və mədəniyyətini öyrədən məktəblər fəaliyyət göstərir. "Daha çox sayda azərbaycanlının yaşadığı qonşu Rusiya Federasiyasında fəaliyyət göstərən bir çox Azərbaycan diaspor təşkilatının nəzdində həftəsonu məktəbləri var. Ümumilikdə, Rusiya Federasiyasının 53 regionunda Azərbaycan dili, tarixi, mədəniyyətini tədris edən həftəsonu məktəbləri fəaliyyət göstərir" - deyə V.Vahidqızı bildirdi.

Məlumat üçün qeyd edək ki, Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin və dilinin qorunub saxlanmasında və inkişaf etdirilməsində, ana dilində təhsil almaq imkanının həyata keçirilməsində yardım göstərir və bu məqsədlə zəruri tədbirlər görürlər. Dövlət qurumu xarici ölkələrdə Azərbaycan dilində fəaliyyət göstərən məktəblərin tədris-metodik və maddi-texniki təminatına və inkişafına, eləcə də həmin məktəblər üçün kadrların hazırlanmasına yardım göstərir, eyni zamanda da xaricdə yaşayan azərbaycanlıların mədəni irsinin öyrənilməsinə dəstək verir. V.Vahidqızı qeyd etdi ki, xaricdə yaşayan azərbaycanlılara öz ana dilini qoruyub saxlamaqda, ana dilinin öyrənilməsində, təhsil almaq və informasiya əldə etmək üçün bu dildən istifadəyə şərait yaradılmasında da komitə yaxından köməklik göstərir.

Rəsmi məlumatlara görə, xaricdə fəaliyyət göstərən Azərbaycandilli məktəblərin müasir mənzərəsinə nəzər saldıqda görərik ki, qardaş Türkiyədə "Zəhra ana" Yardımlaşma və Həmrəylik Dərnəyinin, Azərbaycan Təhsil, Mədəniyyət və Sosial Həmrəylik Dərnəyinin, Azərbaycan Təhsil və Kültür Dərnəyinin nəzdində Azərbaycan məktəbləri fəaliyyət göstərirlər. Bundan başqa, hazırda Qazaxıstanda 7, Özbəkistanda 1, Qırğızıstanda 2 Azərbaycandilli məktəb fəaliyyət göstərir. ABŞ və bəzi başqa ölkələrə nəzər saldıqda isə, Floridada 2, Nyu-Yorkda 1, Bruklində 1, Kaliforniyada 1, Torontoda 1, Ottavada 1, Londonda 1 Azərbaycandilli məktəbi həmvətənlərimizə doğma dilini, tarix və mədəniyyətini öyrədir. Danimarka, İsveçrə, Niderland, Fransa, Estoniya, Litva, Niderland Krallığı da Azərbaycan dili məktəblərinin fəaliyyət göstərdiyi ölkələr sırasındadır.

Komitə sözçüsünün verdiyi məlumata görə, hazırda Ukraynanın Xarkov şəhərində fəaliyyət göstərən "Dostluq" cəmiyyətinin, Ukrayna Azərbaycanlıları Birləşmiş Konqresinin Odessa, Nikolayev, Donetsk, Dnepropetrovsk və digər şəhərlərdəki regional bölməsinin nəzdində də Azərbaycan dili üzrə şənbə-bazar sinifləri fəaliyyət göstərir ki, bu siniflərdə də dilimiz, mədəniyyətimiz və tarixmiz haqqında məlumatlar verilir.

*İradə SARIYEVA*

# Səksən yaşın hesabatı...

**Xalqımızın yaşam tarixinin ən böyük nailiyyətlərindən biri onun milli sərvəti olan Azərbaycan dilidir. Hər bir dil mənsub olduğu xalqın düşüncə və yaşam tərzinin göstəricisi olduğu kimi, həm də həmin xalqın keçib gəldiyi yolların silinməyən izlərini özündə qoruya bilir. Dilimizdəki həmin xəzinənin axtarışına ilk dəfə çıxansa böyük Mahmud Kaşğari olub.**

On illər ərzində türklər yaşayan əraziləri gəzib topladığı zəngin materiallar əsasında ərsəyə gətirdiyi "Divani luğat-it türk" nəinki toplanılmış materialların zənginliyinə, həmçinin ensiklopedik xarakterinə görə əvəzsiz, unukal idi. Təsadüfi deyil ki, ondan sonra gələnlər M.Kaşğarini minnətdarlıqla ortaq türk dilçiliyinin və ümumilikdə türkşünaslığın banisi olaraq qəbul ediblər. Mahmud Kaşğaridən üzü bəri gələn qədim və orta əsr dil tədqiqatçılarının elmi araşdırmaları, birmənalı demək olar ki, Kazan və Peterburq universitetlərinin professoru, dünya şərqşünasları cərgəsinə adını yazdırmağı bacaran Mirzə Kazım

bəyin şəxsində yeni keyfiyyət mərhələsinə qədəm qoydu.

Bu gün də bütün varlığı ilə özünü elmə həsr edən insanlarımız var və həmin insanlar arasında filologiya elmlər doktoru, professor Qara Məşədiyevin adını xüsusi olaraq çəkə bilərik. Qara Məşədiyevi şəxsən tanıyanlar, onun çoxillik elmi araşdırmalarına bələd olanlar bu arı kimi zəhmətkeş və görkəmli elm adamının Azərbaycan dilinə necə doğma və həssas yanaşmasının şahididirlər. Uzun illərdir ki, Qara müəllimlə elm yolunda addımlayan insanlar və onu yaxından tanıyanlar yaxşı bilirlər ki, 80 illiyini qeyd etməyə hazırlaşan alim ömrünün 50 ilini həsr etdiyi Azərbaycan dilçilik elmində ancaq elmi əsərləri ilə deyil, dünəninə ehtiram, gələcəyinə ümidlə baxan bir elm adamıdır.

Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda elmi fəaliyyətə başladığı ilk vaxtlardan o, müasir Azərbaycan dilində nisbətən tədqiqatdan kənarda qalan sahələri araşdırmağa başlamışdır. Təsadüfi deyil ki, Qara Məşədiyevin namizədlik dissertasiyasının mövzusu da həmin "kənarda qalmış" sahələrdən biri ilə bağlı olub: "Müasir Azərbaycan ədəbi dilində adlıq cümlə". Hesab edirik ki, Qara müəllimin bu mövzuya müraciət etməsi daha çox Azərbaycan ədəbi dilinin dərinliklərinə hopmuş canlı danışıq dilinin məxsusi özəlliklərinin araşdırılması olmuşdur. Həmin özəlliklər- söz- cümlələr, yarımçıq cümlələr, sual cümləsi, xitablar danışıq nitqində fikrin ifadəsində xüsusi yer tutur. Uzun müddət Azərbaycan dilçiliyində söz-cümlə ilə bağlı fərqli baxışlar olmuş və nəticədə söz- cümlələrin təktərkibli olması, onun əksər hallarda adlıq cümlə ilə müqayisəsi onların bir-birinə bənzədilməsinə səbəb olurdu. Qara Məşədiyev ilk dissertasiyası işində oxşar qənaətgələnləri inandıra bildi ki, onlar tamamilə müxtəlif sintaktik vahidlərdir: ümumiyyətlə, adlıq cümlələr nominativ xarakter daşıyır, söz- cümlələr isə bu funksiyadan məhrumdur.

Yeri gəlmişkən, ümumilikdə alimin sintaksisdə uzun müddət mübahisə predmeti olan digər məsələlərə də elmi yanaşmalarının yer aldığı, 1981-ci ildə onun həmmüəllifliyi ilə "Elm" nəşriyyatında çap olunan "Müasir Azərbaycan dili" kitabında geniş yer verildi. Yeri gəlmişkən, həmin kitabda o zamanlar üçün dilçiliyimizdə mübahisəli sayılan bir sıra sualların cavabı o qədər arqumentli və məntiqi oldu ki, həmin cavablar elmi ictimaiyyət tərəfindən birmənalı olaraq qəbul edildi. Əlbəttə, bütün bunlar Qara müəllimin gələcək elmi nəticələrdə onu hədəfə doğru aparan yolların kiçicik bir hissəsi idi və az keçmədi ki, alimin 1985-ci ildə çap olunan "Azərbaycan dilinin semasiologiyası", "Azərbaycan dilinin onomastikası", həqiqətən hər bir elm adamının həsəd aparacağı zəhmət və ardıcıllığın nəticəsi olaraq, 1990-cı ildə ortaya qoyulan "Zaqafqaziyanın

Azərbaycan toponimləri" kitabları elmi ictimaiyyətin müzakirəsinə verildi. Ümumiyyətlə, Qara Məşədiyevin həmin illərdəki 15 illik elmi fəaliyyətinin diqqətçəkən bir məqamı haqqında onu demək lazımdır ki, bu görkəmli alimin araşdırmalarının istiqamətini ancaq dilçilikdə deyil, ümumiyyətlə, Azərbaycan xalqının həyatında rol oynayan bir sahəyə yönəldilməsini vətəndaşlıq məsuliyyəti ilə bağlamaq lazım gəlir. Söhbət alimin Azərbaycan dilinin onomastikası ilə bağlı elmi

yaradıcılığından gedir. Bu zaman, sözsüz ki, Azərbaycan ədəbi dilinin zəngin lüğət tərkibinin dərin qatlarındakı özəlliklərin cazibəsi yada düşür. Dilin lüğət tərkibində özünün min illərlə saxladığı onomastik leksikanın, xüsusi adlar silsiləsinin öyrənilməsi özünüdərki sözlərdə ehtiva edən dilin tarixini, keçmişini işıqlandıra biləcək ən yaxşı vasitə ola bilərdi.

O məqamı qeyd edək ki, respublikada Azərbaycan dilinin statusu ilə bağlı və dilimizin müxtəlif sahələr üzrə araşdırılması işində Qara Məşədiyev də yaxından iştirak etmişdir. Onun doktorluq dissertasiyası kimi işlədiyi "Qafqazın ərazi və tayfalarının təsviri materialları məcmuəsində (SMOMPK)



qeydə alınmış onomastik vahidlərin tarixi-etimoloji təhlili" adlı mövzusu isə yenə öz aktuallığı ilə fərqlənirdi. Alimin xüsusi əməyi və gərgin zəhməti nəticəsində əmələ gələn dissertasiya işi ona görə maraqlı idi ki, o, böyük bir arealın və kifayət qədər çoxlu dil vahidlərinin

tədqiqinə həsr edilmişdi. Bu baxımdan alimin doktorluq dissertasiyasının elmi ictimaiyyətdə doğurduğu böyük maraq başa düşüləndir. Həmin araşdırmalarında Qara Məşədiyevin onomostik tədqiqata cəlb etdiyi vahidlərin tarixi-etimoloji təhlili təsdiq edirdi ki, Azərbaycan xalqının tarixi neçə min illərdir ki, bu torpaqlarla bağlıdır.Tədqiqatlardan çıxan elmi nəticələr Azərbaycan xalqının tarixi vətəni ilə nə qədər dərindən çulğalaşdığını göstərmək, sübut etmək baxımından xüsusi ilə əhəmiyyət daşıyırdı.

Doktorluq dissertasiyası haqqında isə onun özü belə xatırlayır: "Dissertasiya işini 17 ilə yazmışam, çünki mövzum geniş bir sahəni əhatə edirdi. Toponimika xalqımızın tarixidir, sərhədlərimizdir, yurdumuzdur. Dilçilik baxımdan bu toponimləri araşdırarkən tarixin qaranlıq qatlarından türk tayfalarının izləri, mədəniyyəti, kökləri haqqında dəyərli məlumatlar əldə etdim". Həmin məlumatlar isə, nə az, nə də çox, 48 illik bir mərhələni əhatə edirdi və beləliklə də, Qara Məşədiyev 1881-ci ildən 1929-cu ilə kimi Tiflisdə nəşr olunmuş, toplu halda 46 cilddən ibarət "Qafqazın ərazi və tayfalarının təsviri məcmuəsi"nin fundamental təhlilinə başladı. Həmin dissertasiyanın ərsəyə gəlməsi ilə bağlı bir müəllif yazısında alimin hansı əziyyətlər bahasına başladığı işi bitirməsi belə qeyd olunurdu: "Sözügedən mənbənin tədqiqi ilə daha çox rus, erməni müəllifləri məşğul olurdular. Onlar məcmuədə - onun bütün 46 cildində Azərbaycan mənşəli toponimləri, hidronimləri və antroponimləri, onların rus dilində yazılışına əsaslanaraq, "erməni mənşəli" kimi qələmə verməyə

çalışmışdılar. Qara Məşədiyev bu yozumların əsassızlığını, elmlə heç bir əlaqəsi olmayan uydurmalar olduğunu gördü, elmi həqiqəti nağıldan ayırmağın vacibliyini və mümkünlüyünü sübuta yetirməyi qarşısına məqsəd qoydu".

Oxşar tədqiqatları ilə professor Qara Məşədiyev uzun müddətdir ki, elmimizə töhvələr verir. Bu illər ərzində onun yazdığı və çap etdirdiyi 13 monoqrafiya,150-dən çox elmi əsəri bu səbəbdən xüsusi rəğbətlə qarşılanır. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun

Müasir Azərbaycan dili şöbəsinin baş elmi işçisi Qara Məşədiyevin fəaliyyəti təkcə elmi axtarışlarla kifayətlənmir, onun çiyninə götürdüyü ictimai yük də nəzərə çarpacaq dərəcədə ağır olsa da o, həmin yükü çəkə bilmişdir. 1992-ci ildən yaxın vaxtlaradək AMEA Nəsimi adına Dilçilik İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurasının elmi katibi olmuş, 31 nəfər doktorant və dissertanta, 26 nəfər fəlsəfə doktorluğu, 6 nəfər elmlər doktorluğu işinə rəhbərlik etməyin ağırlığını isə o, yorulmadan daşıyır.

Professor Qara Məşədiyev Milli Məclisin Toponimika Komissiyasının daimi üzvüdür. İnstitutda keçirilən elmi konfransın keçirilməsində fəal iştirakına, "Onomastika məsələləri" bölməsinə rəhbərliyinə görə filologiya elmləri doktoru, professor Qara İbrahim oğlu Məşədiyevə "Fəxri Fərman" təqdim edilmişdir. Bütün bunlarla bərabər, Qara müəllim qəlbən bağlandığı və sevdiyi işindən-elmi tədqiqatlardan bircə gün olsun belə ayrı düşmür. Bunu, onun uzun müddətli elmiaraşdırmalarının nəticəsi olaraq çap etdirdiyi kitablarının sayı da təsdiq edə bilər.

"Nitq hissələrinin semantikası" (oçerklər), "İzahlı Onomastika terminləri lügəti", "Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili", "Azərbaycan toponimləri" Ensiklopedik lüğət (əsas müəlliflərindən biri), I cild, "Azərbaycan toponimləri" Ensiklopedik lüğət, II cild, "Bakı küçələri: adlar və talelər" və digər hələlik işıq üzü görən kitablarını onun mənalı alim ömrünün hamımıza lazım olacaq məhsulları kimi minnətdarlıqla qəbul edirik.

Bir də maraqlı olan odur ki, 80 yaşlı professor keçdiyi yol ilə bərabər, həmin yolda ona bələdçi, bəzən də dəstək olmuş müəllimlərini böyük bir hörmətlə xatırlayır: "Tələbə vaxtı da yaxşı müəllimlərim olub. Biz təqaüdlə dolanan tələbələr idik. Ancaq müəllimlərimizin qayğısını, diqqətini həmişə hiss edirdik. Cəfər Mehdiyev, Əminə Əliyeva, Tofiq Hacıyev, Yusif Seyidov, Ağamusa Axundov mənim ən yaxşı müəllimlərimdən olublar. Ağamusa Axundov həm də mənim doktorluq

dissertasiyamın məsləhətçisi olub. Bax, bu müəllimlərimi görəndə, başımda papağım olsa, bu yaşımda da papağı götürürəm, onların qarşısında düz dayanıb, baş əyirəm". Etiraf edək ki, səmimiyyətdən doğan bu etiraflar o anları yaşayan və yaşamağı ilə bərabər, onu dilə gətirən insanın mənəviyyatından xəbər verir.

Bəli, bu bir insan ömrünün mənalı alim ömrü ilə gəldiyi yolun hekayətidir. 1989-cu ildə təşkil olunmuş, 1992-ci ilə qədər "Onomastika", 1992-1998-ci illərdə "Tətbiqi dilçilik və onomastika", 1998-ci ildən isə yenidən "Onomastika" adı ilə fəaliyyət göstərən "Onomastika" şöbəsinin rəhbəri olmuş, filologiya elmləri doktoru, professor Qara İbrahim oğlu Məşədiyev belə bir ömürdən məmnundur. O, təkcə özü yazdığı və özünün imzası ilə çap olunan əsərlər barədə danışmır, rəhbəri olduğu şöbənin kitablarının timsalında ortaya qoyulan əməyi barədə söz açmağı sevir.

"Azərbaycan dilinin böyük izahlı onomastik lüğəti", "Gürcüstanın Azərbaycan mənşəli toponimləri", "Azərbaycan onomastik vahidlərinin orfoqrafiya və orfoepiya prinsipləri", "Azərbaycan dilinin folklor onomastikası", "Naxçıvan Muxtar Respublikası onomastik vahidlərinin tarixi-linqvistik təhlili", "Azərbaycan toponimlərinin arealları", "Azərbaycan onomastik leksikasının tipologiya, stratiqrafiya və stratifikasiyası məsələləri", "Zaqafqaziyanın Azərbaycan toponimləri", "Əfqanıstanda türk mənşəli toponimlər", "Azərbaycan dilinin onomastikası", "Azərbaycan onomastik lüğətləri", "Onomastik lüğətlərin tərtib prinsipləri", "Azərbaycan toponimləri" və s. monoqrafiyalar şöbənin, kollektiv əməyin nəticəsidir - deyir.

Belə yaşamağa dəyər və həmin dəyərlərlə də deyirik: 80-in mübarək olsun, Qara müəllim. Qarşıda isə 90, 100 var...

***Mahirə HÜSEYNOVA***
*filologiya elmlər doktoru, professor,*
*ADPU-nun filologiya fakültəsinin dekanı*

**Forma № 1S**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: ____Zaman STSB MMC (VÖEN: 1400642981)_____

Hesabat dövrü ______01 yanvar 2018 - 31 dekabr 2018 ci il___________________________

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I.UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 297250.80 | 308891.94 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | 29466.41 | 27403.71 |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 70928.00 | 247205.84 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| *Cəmi uzunmüddətli aktivlər* | 397645.21 | 583501.49 |
| II . QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Ehtiyatlar** | 0.00 | 2082.50 |
| **Debitor borcları:** | 1473344.12 | 1597665.90 |
| birbaşa sığorta üzrə | 0.00 | 0.00 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | | |
| - təkrarsığortaçı üzrə | | |
| - təkrarsığortalı üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 27460.94 | 113.95 |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | 250.39 | 633.00 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 1445632.79 | 1596918.95 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 823463.50 | 643148.38 |
| kassa | 16865.37 | 13210.44 |
| hesablaşma hesabı | 101768.11 | 86571.53 |
| valyuta hesabı | 704830.02 | 543366.41 |
| depozit hesablar | | |
| sair pul vəsaitləri | 0.00 | |
| **Qısamüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| **Sair qısamüddətli aktivlər:** | 13938.91 | 17708.42 |
| gələcək hesabat dövrlərinin xərcləri | 13938.91 | 17708.42 |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | |
| **Sair aktivlər** | 0.00 | 4880.00 |
| *Cəmi qısamüddətli aktivlər* | 2310746.53 | 2265485.20 |
| CƏMİ AKTİVLƏR | 2708391.74 | 2848986.69 |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I . KAPİTAL | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 14000.00 | 14000.00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 2197014.28 | 1303424.44 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -146367.99 | -941200.09 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 3031.62 | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 2340350.65 | 2244624.53 |
| Elan edilmiş dividendlər | 0.00 | |
| *Cəmi kapital* | 2211014.28 | 1317424.44 |
| II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| **Sığorta ehtiyatları:** | | |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları :** | 0.00 | 0.00 |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 0.00 | 0.00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | |
| təkrarsığortaçı üzrə | | |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 0.00 | 0.00 |
| III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | 491177.04 | 1465926.57 |
| əməyin ödənilməsi üzrə | | 1267.70 |
| büdcə üzrə | 0.00 | 18636.62 |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 491177.04 | 1446022.25 |
| **Sair qısamüddətli öhdəliklər:** | | 111.00 |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | 111.00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0.00 | 0.00 |
| **Sair öhdəliklər** | 6200.42 | 65524.68 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 497377.46 | 1531562.25 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 497377.46 | 1531562.25 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 2708391.74 | 2848986.69 |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

**Baş Direktor :** **Əhmədov Şahin**

**Maliyyə Direktoru:** **Səfərov Ağasi**

**Forma № 2S**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı:_Zaman STSB MMC (VÖEN: 1400642981)_

Hesabat dövrü ______01 yanvar 2018 - 31 dekabr 2018 ci il__________________________

*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqaviələr üzrə komissyon muzdlar üzrə | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **İnvestisiya gəlirləri üzrə** | |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | 1784195.69 |
| CƏMİ GƏLİRLƏR | **1784195.69** |
| Xərclər | |
| **Əsas əməliyyat xərcləri:** | **511259.42** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| qaytarılan sığorta haqları üzrə | 511259.42 |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 1686416.64 |
| **Sair xərclər** | 527719.72 |
| CƏMİ XƏRCLƏR | **2725395.78** |
| **Maliyyə mənfəəti (zərəri)** | -941200.09 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0.00 |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | -941200.09 |
| **Mənfəət vergisi** | 0.00 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | -941200.09 |

**Baş Direktor:** **Əhmədov Şahin**

**Maliyyə Direktoru:** **Səfərov Ağasi**

№ 67 (3965) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

16 APREL 2019-cu il

www.baki-xeber.com

# Dünyanın ən böyük təyyarəsi ilk uçuşunu reallaşdırdı - Qanad açıqlığı 117 metr, ağırlığı 226 ton...



**Dünyanın ən böyük təyyarəsi ilk uçuşunu reallaşdırıb.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, "Stratolaunch" şirkəti tərəfindən hazırlanan 117 metrlik qanad açıqlığına sahib, 226 tonluq "Roc" adlı təyyarə aprelin 13-də Kaliforniyadakı Mojave hava limanından qalxıb. Bu uçuş, raketləri havadan orbitə göndərmək üçün hazırlanmış təyyarə üçün kritik ilk sınaq uçuşu olub. Şirkətin məlumatına görə, sınaq uçuşu 150 dəqiqə davam edib və təyyarə təhlükəsiz şəkildə yerə enib. Təyyarə 6 ədəd Boeing 747 mühərriki ilə təmin edilib və 250 tonluq yükdaşıma qabiliyyətinə malikdir. Iki gövdəli "Stratolaunch" planetin ətrafında orbitə göndəriləcək raketləri buraxmaq üçün nəzərdə tutulub. Kosmik tədqiqatlarda istifadə ediləcək təyyarə, raketləri təxminən 10 kilometr yüksəkliyə qaldırıb oradan orbitə göndərəcək.

## Elan

Şəki rayonu, Kiçik Dəhnə kənd sakini Kərimov Təmraz Kərim oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 582 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Kiçik Dəhnə kənd sakini Xalıqov Xalıq Nazar oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0088 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəmkir rayonu, Bayramlı kəndində yerləşən, Kazımov Qurban Kazım oğluna məxsus torpaq sahəsinin dövlət aktı itdiyindən etibarsız sayılır (JN383 Kod 50400078).

Xəlilov Qabil Şamil oğlunun adına, Bakı şəhəri, Nizami rayonu, Ə.Hacıyev küçəsi, ev 36, mənzil 42 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Musayev Abdulla Musa oğlunun adına, Abşeron rayonu, Xırdalan şəhəri, məhəllə 27, ev 13 B, mənzil 23 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ağayev Ağayar Ağakərim oğlunun adına, Bakı şəhəri, Səbail rayonu, Ə.Nəzmi küçəsi, ev 100, mənzil 1 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Təyminə Şamil qızının adına, Bakı şəhəri, Yasamal rayonu, M.İbrahimov küçəsi, ev 9 ünvanında yerləşən fərdi yaşayış evinin qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Muradova Zəhra Bilal qızının adına, Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh ərazisində yerləşən 1379 a nömrəli bağ sahəsinə dair 18.06.1990-cı il tarixli, 27861 nömrəli müqavilə itdiyi üçün etibarsız sayılır.

Əliyeva Lətifə Qulam qızının adına, Bakı şəhəri, Sabuncu rayonu Ləhiş ərazisində yerləşən 1672 nömrəli torpaq sahəsinin 04.08.2006-cı il tarixli, 17517 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Salahov Akif Əlheybət oğlunun adına 30.08.1997-ci il tarixli, N004101 müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Şəki Vərəm Əleyhinə Xəstəxananın kollektivi, baş həkim Laçın İbrahimxəlilov başda olmaqla, Şəki MRX-nın Endokrinoloji şöbəsinin müdiri, Tibb Elmləri doktoru, "Respublikanın Əməkdar Həkimi" Tofiq Mehdiyevə anası Şahnigar İbrahim qızının vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**
**Allah Rəhmət eləsin!**

**Şəki MRX-nın Endokrinoloji şöbəsinin kollektivi şöbə müdiri, Tibb elmləri doktoru, "Respublikanın Əməkdar Həkimi" Tofiq Mehdiyevə anası, Aytel Əmrahovaya nənəsi Şahnigar İbrahim qızının vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**
**Allah Rəhmət eləsin!**

## Venerada qanlı həyat izləri...

**Rusiya Elmlər Akademiyasının Kosmik Tədqiqatlar İnstitutu və Boerskov adına institutun mütəxəssisləri bildiriblər ki, qonşu planetdə əvvəllər elmə məlum olmayan bio kimyəvi prinsipə əsaslanan canlı həyat formasının olma ehtimalı var.**

"Ölkə.az" bildirir ki, "Venera-9", "Venera-10", "Venera-13", "Venera-14" aparatları vasitəsilə 1975-1982-ci illər arasında Venera planetinin səthinin panoram görüntüləri əldə edilib. Fotolarda asta hərəkət edən obyektlər nəzərə çarpır. Eneranın səthindəki fotolarda göbələk, həşərat, əqrəb kimi canlıları xatırladan 19 hipotetik məxluq var. Onların hamısının öz ölçüsü, xüsusiyyəti var və fotolarda yerlərini dəyişdikləri məlum olur. Alimlər ehtimal edirlər ki, fotolardakı məxluqlar güclü küləyin təsiri ilə yox, müstəqil hərəkət edirlər. Çünki, aparatlar vasitəsilə küləyin gücü hesablanıb və bu külək sözügedən obyektləri tərpətmək üçün kifayət deyil. Bundan başqa, hipotetik məxluqlar kamera obyektivinə o dəqiqə yox, bir müddət sonra düşüb. Bu isə aparatın enişi zamanı məxluqların qruntla örtüldüyündən xəbər verir. Məsələn, əqrəb olduğu ehtimal edilən məxluq torpağın altından saat yarıma çıxıb. Bu isə onun çox məhdud fiziki imkanları olduğundan xəbər verir. Rus alimləri qeyd edirlər ki, yadplanetli canlı həyat Yerdəkinə bənzəməli deyil. Uyğun olaraq, onların yarandığı və yaşadığı şərait bizim gördüyümüzdən fərqli ola bilər. Venerada orta illik temperatur 640 dərəcədir və 90 barlıq təzyiq canlı həyat üçün əlverişlidir. BŞ-ın Hoddarda komsik Tədqiqatlar İnsitutunun alimləri qeyd edirlər ki, iki milyard il əvvəl Venerada iqlim Yerdəki kimi olub. Burada okeanlar olub və temepratur 15-17 dərəcə arasında dəyişib. Canlılar isə Yerdəki orqanizmlərə bənzəyib.





**Qoç** - Bilik və bacarıqların artırılması, yeni təcrübənin əxz olunması üçün yaxşı zamandır. Problemlərin həllində kreativ olun. Müzakirələr və danışıqlar aparın, qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün praqmat davranın.



**Buğa** - Günün ilk yarısında yaranan seçim imkanlarından bəhrələnin. Spontan şərtlər sizi qərarlarınızda qəti olmağa vadar edəcək. Yaşamınızda indi qəflətən baş verən hadisələr çoxdur.



**Əkizlər** - Günün ilk yarısı əlverişli zamandır. Danışıqlar aparmaq, sövdələşməyə başlamaq, yeni tanışlıqlara nail olmaq, qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün aktivləşmək olar. Yeni ideya və layihələri bir qədər ertələyin.



**Xərçəng** - Günün ilk yarısı əsəbi vəziyyətdir. Situasiya sürətlə dəyişəcək. Sabitlik hissi yoxdur. Qərarları sürətlə, tez, psixoloji komfortu nəzərə almadan verin. Münaqişəyə səbəb olmayın.



**Şir** - Təcili həllini tələb edən işlərlə məşğul olun. Sərmayə və maliyyə məsələlərində ehtiyatlı olun. Diqqətli davranın. Enerji səviyyəniz aşağıdır. Qəfil hadisələr sizdən sürətli reaksiya və məntiqli həll tələb edir.



**Qız** - Günün ilk yarısı yaxşı zamandır. Gərəkli informasiya axtarışları maraqlı tapıntılarla sonuclana bilər. Yeni situasiyadan istifadə edərək irəliləməyə çalışın. Həmfikir və şəriklərlə birgə fəaliyyətə üstünlük verin.



**Tərəzi** - Qəfil xəbərlər alacaqsınız. Sizə birbaşa dəxli olan məsələlərin həlli ilə məşğul olun. Kollektivdə dəyişikliklər, planlara yenidən baxılması, yeni tapşırıqlar və öhdəliklər istisna deyil.



**Əqrəb** - İşlərinizdə qayda yaradın. Qayğı tələb edən obyekt spontan formalaşacaq. Həddən artıq yükə boyun olmayın, qüvvə və imkanlarınızı real dəyərləndirin. Fiziki tonus səviyyəniz aşağıdır.



**Oxatan** - Günün ilk yarısı perspektivlər baxımından sərfəlidir. Aldığınız təklifləri dəyərləndirin. Səfər və ya yerdəyişmə ilə bağlı tapşırıqlardan imtina etməyin. Xəbərlər və informasiyaların axınında olun.



**Oğlaq** - Ən adi işlərlə yanaşı, mühüm məsələlərin çözülməsi üçün yaxşı zamandır. Bununla belə, genişmiqyaslı və yeni layihəyə başlayarkən səbrli olun, aramla davranın. İndi ağır işə başlamaq üçün əlverişli zamanın axtarılması vaxtıdır.



**Dolça** - Günün ilk yarısında problemlərin sayı artacaq. Təcili həllini tələb edən məsələlərlə məşğul olun. Sizi işdən ayıra biləcək xəbərlərə aludə olmayın. Fəaliyyət istiqamətinin dəyişməsi, yeni mühüm seçim istisna deyil.



**Balıqlar** - Hər şeyi atıb dünyanın o başına getmək, canınızı boğaza yığmış şəraitdən və insanlardan qurtulmaq istəyirsiniz. Di gəl, bir qədər əvvəl verilmiş vədləri yerinə yetirmək, öhdəlikləri icra etmək gərəkdir.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## NASA astronavtları necə seçir?

**Conson adına kosmik mərkəzin nümayəndəsi Brendi Di NASA-nın astronavt seçimlərindən danışıb.**

Oun sözlərinə görə, astronavtlar üçün ən vacib olan keyfiyyət, komandada işləmək, rəhbər olmaq və başqalarının tapşırıqlarına əməl etmək bacırığıdır, yerdə qalan şeyləri öyrətmək çətin deyil. Brendi Di vurğulayıb ki, astronavtların hazırlıq prosesi onların cəlb olunacağı missiya və konkret tapşırıqlarından asılı olaraq dəyişə bilər.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.